

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Beynəlxalq Olimpiya Komitəsi Azərbaycandan üzr istəyib



4

№ 138 (7063)

SƏS

3 avqust 2024-cü il.
Qiymәti 60 qәpik

# 30 illik Milli Olimpiya Hərəkatı: sağlam, vətənpərvər gənclik, güclü idmanın təməli


2

# Mədəni irsin talanması vandalizm aktıdır!

İşğal dövründə mədəniyyət nümunələrini oğurlayanlar yalnız Ermənistan deyil, həm də Fransa və ABŞ-dır


11

## Parisdən Azərbaycana ikinci qızıl medal



7

## Seçki zəiflərin meydanı deyil


8

## "Ermənistan öz konstitusiyasında dəyişiklik etməlidir"


14

## Qarpızı necə seçməli ki, zəhərlənməməli?


13

## MTK-lar əhalini necə talayır? - ŞOK FAKTLAR


5

# 30 illik Milli Olimpiya Hərəkatı:

# sağlam, vətənpərvər gənclik, güclü idmanın təməli

Ölkəmizdə olimpiya hərəkatının başlanılmasına və onun fəaliyyətinə bu günün prizmasından nəzər saldıqda gözlərimiz önündə bir qərinəlik dövrün uğur və nailiyyətlərlə dolu mənzərəsi açılır. Bəlkə də 30 ilin əvvəlində idmanın inkişafı ilə bu nöqtəyə gəlib çıxmağın mümkünlüyü heç ağıla da gəlməzdi. Çünki həmin dövr o dövr idi ki, ölkə iqtisadi cəhətdən tənəzzülə uğramışdı. Sovet imperiyasının buxovlarından yenicə azad olan xalq olmazın çətinlikləri ilə üz-üzə qalmışdı. Bu, həyat tərzi olaraq gənclərimizdən də təsirsiz keçmirdi. Milli Ordumuzun yenicə təkmilləşdiyi o illərdə gənc oğlanlar 4-5 il əsgəri xidmət keçir, qayıdanlar işləmək üçün iş yerləri tapmırdılar. Gənc qızların da sosial həyatı çox passiv şəkildə idi, onların asudə vaxtlarının səmərəli təşkili üçün əsaslı bir ünvan yox idi. Belə bir dövrdə gənclərin üzünə onların maraqlarını təmin edə biləcək qapıların açılması təbii ki, 30 ilin sonunda bu uğurların sadalanması ilə nəticələnəcəkdi. Bu qapı idmanın inkişafı, ölkəmizdə Olimpiya Hərəkatının başlanması idi. Bu, həm də ölkənin gələcək inkişafına istiqamətlənmiş siyasətin prioritetlərindən biri idi. Ölkəmizin başçısı cənab İlham Əliyevin dediyi kimi: "Azərbaycanda Olimpiya Hərəkatı və idman uğurla, sürətlə inkişaf edir. Azərbaycan dünyada idman dövləti kimi tanınır. İdman Azərbaycanda dövlət siyasətidir. Dövlət bu istiqamətdə öz siyasətini apararkən idmanın hərtərəfli inkişafına nail ola bilmişdir".





## Bədənin düzgün tərbiyəsi sağlam nəsil yetişdirir

Ümummilli Liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirmiş, gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi qayğısına qalmışdır. Ulu öndərin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması ölkədə idmanın inkişafına güclü təkan vermişdir. Məhz bu dövrdən başlayaraq Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı üçün dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirilmiş, 1997-ci ildən gənclər və idman siyasəti yeni mərhələyə qədəm qoymuşdur. Həmin il iyul ayının 31-də cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin Prezidenti seçilməsindən sonra ölkəmizdə idman hərəkatı daha da genişlənmiş, bu sahənin inkişafına xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Mən imkan daxilində hamıya, gənclərə isə, əlbəttə, maksimum dərəcədə idmanla məşğul olmağı məsləhət görürəm. Ona görə ki, bu, sağlamlıq üçün, ilk növbədə cəmiyyət üçün faydalıdır".

Bədən tərbiyəsi, yəni bədənin tərbiyəsi hər dövr üçün ən aktual məsələdir. Yəni hər bir insan bədənini müəyyən istiqamətdə tərbiyə etməyi bacarırsa, zamanla onun faydalarını da görməyə başlayır. Bədənin tərbiyəsi öncə hər bir ailədə valideynlərin üzərinə düşən vəzifədir. Hər bir ata-ana övladının kiçik yaşlarından bədəninin tərbiyəsinin əsasını qoymalı, müxtəlif rejimlər tətbiq etməklə bunu onun vərdişinə çevirməli və sağlam həyat tərzinin təməlini qoymalıdır.

Bəzən bədən tərbiyəsi dedikdə çox insanlar tək idmanı nəzərdə tutur. Lakin bu, belə deyil. İnsanın gün ərzində səhər saatlarından gün bitənədək fəaliyyəti onun bədəninin tərbiyəsini xarakterizə edir. Bura səhər gəzintiləri də, yemək, istirahət saatları da, kitab oxumaq, dərs çalışmaq, hansısa bir işi görmək də, yaxud əksinə, sağlam həyat tərzinə zidd olanların hər biri daxildir. Beləliklə, lap kiçik yaşlarından bədənin tərbiyəsinə necə başlanarsa, sonrakı illərdə də həyatımız əsasən o qayda ilə davam etdirilir.

Sağlam həyatın, mənalı ömrün, cəmiyyətə layiqli olmağın, ən əsası isə vətənsevərliyin, vətənpərvərliyin əsası bədənin tərbiyəyə necə alışdırılmasından birbaşa asılıdır. Düzgün bədən tərbiyəsi sayəsində şüurun, beynin sürətli inkişafı, hadisələrə baxış bucağının düzgün qurulması, cəmiyyətə sağlam şəkildə yanaşması ilə insan, sözün həqiqi mənasında, mənsub olduğu ölkə üçün uğurdur. Bunun üçün də bədən tərbiyəsinin inkişafı dövlətimiz tərəfindən diqqətdə saxlanılan prioritet məsələlərdəndir.

Gələcəyimiz olan gənclərin fiziki cəhətdən sağlam böyüməsində bədən tərbiyəsi və idmanın mühüm rolu vardır. Ona görə də ölkəmizdə bu sahənin inkişafı mühüm və qabaqcıl istiqamət kimi müəyyənləşdirilmişdir. Gənclərlə iş, bədən tərbiyəsi və idman sahəsində həyata keçirilən tədbirlər artıq öz bəhrəsini verməkdədir.

## Sağlam nəsil -güclü idman

Son illər ölkə iqtisadiyyatının sürətli inkişafı bədən tərbiyəsi və idmanı da əhatə etmişdir. Ölkə başçısının diqqət və qayğısı ilə Azərbaycanın hər yerində müasir idman kompleksləri tikilib istifadəyə verilir, mövcud idman obyektləri günün tələblərinə uyğun yenidən qurulur, maddi-texniki baza möhkəmləndirilir. Prezident cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin 25 illik yubileyi münasibətilə keçirilən mərasimdə deyirdi: "Biz əlbəttə ki, ilk növbədə, idmanla məşğul olmaq üçün şərait yaratmalı idik və bu istiqamətdə dövlət investisiyaları hesabına Azərbaycanda bir çox müasir Olimpiya idman qurğuları tikilib istifadəyə verilmişdir. Təkcə onu demək kifayətdir ki, Azərbaycanın bölgələrində 50-yə yaxın müasir Olimpiya İdman Kompleksi tikilmişdir. Bakıda isə bu gün ən müasir idman infrastrukturu mövcuddur. Əvvəlki illərdə tikilmiş idman obyektləri əsaslı təmir olundu və eyni zamanda, son illərdə bir neçə böyük stadion, idman zalı inşa edildi.

*Ardı səh. 3*

# 30 illik Milli Olimpiya Hərəkatı:

# sağlam, vətənpərvər gənclik, güclü idmanın təməli

Əvvəli səh. 2











Onların arasında əlbəttə ki, təxminən 70 min tamaşaçı yeri olan Olimpiya Stadionunu qeyd etməliyəm. Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi böyük investisiya tələb edən müasir idman qurğularıdır. Eyni zamanda, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. Bir sözlə, son illər ərzində həm bölgələrdə, həm Bakıda idmanın inkişafına, infrastruktur layihələrinə qoyulan vəsait öz nəticəsini verməkdədir".

Peşəkar idmançıların yetişdirilməsi, bu sahədə qazanılan nailiyyətlərin ildən-ilə artması, beynəlxalq yarışlarda yüksək nəticələrin əldə olunması və ölkəmizin beynəlxalq yarışlara ev sahibliyi etməsi dövlətin bu sahəyə olan qayğısının nəticəsidir. Olimpiya və dünya çempionatlarında qazanılan medalların, nailiyyətlərin sayı ildən-ilə artır. İdmançılarımız 2008-ci ilin avqustunda Pekində keçirilən Olimpiya Oyunlarında uğurla çıxış edərək 7 medal qazanıb və Azərbaycan dünyanın iki yüzdən çox ölkəsi arasında 38-ci yeri tutub.

Prezident İlham Əliyevin Sərəncamı ilə "İdman İli" elan edilən 2012-ci il də Azərbaycan idmançıları üçün uğurlu il olub. İdmançılarımız Londonda keçirilən XXX Yay Olimpiya Oyunlarında daha yaxşı nəticə əldə edib. London Olimpiadasında idmanın 16 növü üzrə 53 idmançı ilə təmsil olunan Azərbaycan 2 qızıl, 2 gümüş və 6 bürünc medal qazanmaqla bundan əvvəlki olimpiadalardakı rekordunu yeniləyib. 2016-cı ildə Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunlarında isə Azərbaycan milli komandası medal sayına görə 14-cü yerdə qərarlaşdı. İdmançılarımız milli komandamızın aktivinə 18 medal yazdırdılar.

2021-ci ildə Tokioda XXXII Yay Olimpiya Oyunlarında Azərbaycan 44 idmançı ilə təmsil olunub və ölkəmizə 3 gümüş, 4 bürünc medal gətiriblər. Azərbaycan komandası medalların əyarına görə 67-ci, medalların sayına görə 33-cü pillədə qərarlaşıb.

Bu günlər Fransada keçirilən XXXIII Yay Olimpiya Oyunları da ölkəmizə uğur gətirməkdədir. Bu günədək 2 cüdoçumuzun qızıl medal qazanaraq Olimpiya çempionu olması Azərbaycanda idman sahəsinə göstərilən qayğının nəticəsidir. Dövlətimizin başçısının və birinci xanımın idmançılarımız Hidayət Heydərov və Zelim Kotsoyevə zəng vurmaları, təbrikləri, onlarla bağlı sosial şəbəkə hesablarında paylaşım etmələri ümumilikdə Azərbaycan gəncliyinə verilən dəyərdir.

Bugünkü qələbələrin təməlində dövlət başçısının tez-tez federasiya rəhbərləri, idmançılarla görüşləri, tövsiyələri, onlara qayğı ilə yanaşması, zəhmətlərini dəyərləndirməsi dayanır. Həmçinin idman sahəsində əsl yüksəliş dövrünü yaşayan Azərbaycanda mükəmməl idman infrastrukturu da yaradılıb. Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı və digər möhtəşəm idman obyektləri bunun göstəricisidir. Bütün bunlar ölkəmizi beynəlxalq yarışların, dünya çempionatlarının keçirilməsi üçün əlverişli məkana çevirib. Təsadüfi deyil ki, belə möhtəşəm idman qurğuları 2012-ci ildə futbol üzrə 17 yaşlı qızlar arasında dünya çempionatının, 2015-ci ildə birinci Avropa Oyunlarının, 2016-cı ildə futbol üzrə 17 yaşadək oğlanlar arasında Avropa çempionatının, 42-ci Ümumdünya Şahmat Olimpiadasının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının və qadınlar arasında voleybol üzrə Avropa çempionatının, 2019-cu ildə bədii gimnastika üzrə dünya çempionatının, habelə Formula-1 Azərbaycan Qran-prilərinin, 2021-ci ildə futbol üzrə Avropa çempionatının müəyyən mərhələlərinin yüksək səviyyədə təşkil olunması ilə nəticələndi.

## İdmançılarımız yarışlarda qaldırdıqları Azərbaycan bayrağını Qarabağda da qaldırdılar

"İdman təkcə fiziki sağlamlıq deyil, bu, həm də özünəinamdır, iş qabiliyyətidir, mənəvi vəziyyətdir",- deyən Prezident İlham Əliyevin bu dəyərli fikirlərinə istinadən demək olar ki, bəli, idman sağlamlıqla yanaşı, həm də özünəinamı, eyni zamanda qorxmazlığı, əyilməzliyi, igidliyi özündə ehtiva edir ki, bütün bunlar isə insanda vətənpərvərlik hissinin formalaşmasında böyük əhəmiyyətə malikdir.

Ölkəmizdə gənc nəsil bədən tərbiyəsi və idmanla kütləvi şəkildə məşğul olduğundan bu, son illər vətənpərvər gəncliyin də yetişməsində mühüm rol oynamışdır. Sağlam həyat tərzi, düzgün yaşam, cəmiyyət üçün gərəkli fərd olmaq insanda Vətəninə, torpağına, el-obasına sevgi, qədirbilənlik hissini formalaşdıran amillərdir. Bugünkü gəncliyin yüksək vətənpərvərlik keyfiyyətinə malik olmasında bu sahəyə göstərilən diqqət və qayğı öz sözünü deyib. 2020-ci ildə 44 günlük Vətən müharibəsində gənclərimizin dünyaya nümunə olan vətənpərvərliyi dövlətimizin vətəndaşına göstərdiyi qayğının bəhrəsi kimi təzahür etdi. Statistikaya görə Vətən müharibəsində idman sahəsi üzrə 500 nəfər iştirak edib. Onlardan 54 nəfəri şəhidlik zirvəsinə yüksəlib. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərə 390 nəfər könüllü kimi qatılıb. Hərbi xidmətə çağırılanlar 33, hərbçi kimi iştirak edənlər isə 23 nəfər olub. Müharibə iştirakçılarından 67 nəfər yaralanıb.

Gənclərimizin torpaqlarımızın işğaldan azad olunması uğrunda göstərdikləri şücaət, onların fiziki gücü, son nəfəslərinədək rəşadətlə döyüşməsi, torpaq, Vətən uğrunda şəhid olması göstərdi ki, bu xalqın övladlarının Vətən sevgisi bütün sevgilərdən, istəklərdən öndədir. Hər bir yarışda Azərbaycan bayrağını qürurla dalğalandırmağa nail olan idmançılarımız üçrəngli bayrağımızı Qarabağda da dalğalandırmağa nail oldular. Gənclərlə görüşündə Prezident İlham Əliyev onların Vətən müharibəsindəki şücaətindən söhbət açaraq demişdir: "Şuşa qalasına dırmaşmaq, təkcə Daşaltıdan Şuşaya piyada getmək, necə deyərlər, böyük sınaqdır. Amma sənin üzərinə avtomatlardan, pulemyotlardan, tanklardan atəş yağdırılırsa, mənəvi və fiziki ruh yüksəkliyi lazımdır. Bu, mənəvi və fiziki ruhun birliyidir. Bəs əgər bizim gənclər hazırlıqsız olsaydı, əgər onlar fiziki cəhətdən zəif olsaydı, bacarardılarmı? Bacarmazdılar. Ona görə idman bu deməkdir. Dinc həyatda da hökmən lazımdır, hökmən".

## Çempionlarımız cəmiyyətdə də özlərini çox ləyaqətlə aparırlar

Dövlətimizin başçısı onu da vurğulayır ki, bizim qabaqcıl, görkəmli idmançılarımız bütün idmançılar üçün nümunədir. Çünki onlar həm idmanda böyük uğurlar qazanıblar, həm də onların hamısı vətənpərvər insanlardır. Eyni zamanda, bizim çempionlarımız cəmiyyətdə də özlərini çox ləyaqətlə aparırlar. Bu, bir yeni davranış nümunəsidir.

Uşaqların, yeniyetmələrin, idmanla məşğul olmaq istəyənlərin də onlara oxşamasını vurğulayan ölkəmizin rəhbəri qeyd edir ki, onlar görürlər ki, əgər sən idmanda böyük uğur əldə etmisənsə, cəmiyyətdə özünü ləyaqətlə aparırsansa, öz həyatını ləyaqətlə qura bilərsən. Ona görə, son illər ərzində idman bölmələrinə müşahidə olunan kütləvi axın bu səbəblərdən qaynaqlanır. Bu, məni çox sevindirir. Çünki bizim gənclər idmanla nə qədər çox məşğul olsalar, onlar üçün də, dövlət üçün də bir o qədər yaxşı olacaq. İdmanla məşğul olanlar vətənpərvər insanlardır. İdman qələbələri hər bir vətənpərvər Azərbaycan vətəndaşını sevindirir. Hər dəfə biz beynəlxalq yarışlarda görəndə ki, bizim bayrağımız qaldırılır, ürəyimiz fərəhlə dolur. Bu sevinc anlarını bizə idmançılar yaşadır. Əminəm ki, gələcək yarışlarda idmançılar yenə də qələbə qazanacaqlar, Azərbaycan xalqını sevindirəcəklər.

Bəli, Olimpiya Hərəkatının uğurları ölkəmizə ötən 20 ildə yüksək səviyyədə rəhbərlik edən dövlət başçısının, eləcə də Olimpiya Hərəkatının rəhbərinin uğurları, yüksək idarəetmə təfəkkürü ilə gələcəyə hesablanmış siyasətin nəticəsi, nəyi nə vaxt etməyin əyani göstəricisidir. Elə Azərbaycanın bugünkü inkişafı da, 2020-ci ildə 30 illik mücadilənin sonu olaraq 44 gündə Qarabağın işğaldan azad olunması da, 2023-cü ilin 20 sentyabrında birgünlük lokal xarakterli antiterror əməliyyatı nəticəsində ərazi bütövlüyümüzün bərpası da, bu gün ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması da dövlətimizin başçısının nəyi nə vaxt edəcəyini düzgün müəyyənləşdirməsinin bariz göstəricilərdir.

***Mətanət Məmmədova***

# “Bu kimi addımların gələcəkdə təkrarlanmamasını tələb edirik”

## Azərbaycan XİN "France 2" telekanalının müxbirinin ölkəmizə qarşı qərəzli fikirlərinə münasibət bildirib

Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Yay Olimpiya Oyunlarının açılış mərasimində ”France 2” telekanalının müxbirinin ölkəmizə qarşı səsləndirdiyi qərəzli fikirlər ilə bağlı yerli medianın sualını cavablandırıb. Mətbuat katibi bununla bağlı deyib: ”Məlum olduğu kimi, Beynəlxalq Olimpiya Komitəsi tərəfindən Azərbaycanın rəsmi etiraz məktubuna münasibət bildirilib, ”France2” telekanalının səsləndirdiyi qəbuledilməz ifadələrlə bağlı ölkəmizdən üzrxahlıq edilərək, bu ifadələrin Beynəlxalq Olimpiya Komitəsinin idman və Olimpiya Oyunları vasitəsilə təşviqinə çalışdığı prinsiplərə və dəyərlərlə bir araya sığmadığı vurğulanıb.



Fransanın rəsmi dövlət kanalında səsləndirilmiş və Olimpiya Oyunlarının siyasiləşdirilməsinə xidmət göstərən qərəzli fikirlər Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının tərkib hissəsi olduğu, buna məqsədyönlü şəkildə yol verildiyi qənaətindəyik. Bu baxımdan məsuliyyət daşıyan tərəfin, ilk növbədə, Olimpiya Oyunlarının ev sahibi Fransa olması səbəbindən bu ölkənin də üzrxahlıq edəcəyini gözləyir, Azərbaycana qarşı bu kimi addımların gələcəkdə təkrarlanmamasını tələb edirik”.

# Beynəlxalq Olimpiya Komitəsi Azərbaycandan üzr istəyib

Beynəlxalq Olimpiya Komitəsi (BOK) ”Paris-2024” Yay Olimpiya Oyunlarının açılış mərasiminin şərhi zamanı ”France2” telekanalının müxbirinin işlətdiyi ifadələrə görə Azərbaycandan üzr istəyib. Azərbaycan Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məktubda qeyd edilib ki, bu cür sözlər Beynəlxalq Olimpiya Komitəsinin idman və Olimpiya Oyunları vasitəsilə təbliğ etdiyi prinsip və dəyərlərə ziddir. Buna görə də bu məsələyə cavabdeh qurum və şəxslərlə əlaqə saxlanılıb və gələcəkdə belə hallara yol verilməməsi üçün BOK-un iş prinsipi və protokolları xatırladılıb.




”Paris-2024” Yay Olimpiya Oyunlarının yayımçısı olan ”France 2” telekanalının ölkəmizə qarşı tutduğu qərəzli mövqeyə və bu hadisədən Beynəlxalq Olimpiya Komitəsinin Azərbaycana üzrxahlıq məktubunu nəzərə alaraq, Fransa hökumətinin də Azərbaycandan rəsmi üzr istəməsini gözləyirik”, - deyə Gənclər və İdman Nazirliyindən bildirilib.

# Türkiyəli ekspert: ”Ankara-İrəvan dialoqu Azərbaycan-Ermənistan danışıqları ilə qarşılıqlı əlaqəlidir”



***Türkiyə ilə Ermənistan arasında davam edən dialoq prosesini Bakı və İrəvanın sülh danışıqlarından ayırmaq mümkün deyil. Bu proseslər bir-biri ilə bağlıdır. Bunu Türkiyə və Azərbaycanın liderləri dəfələrlə və açıq şəkildə bəyan ediblər. AZƏRTAC xəbər verir ki, bu fikirləri ”Haber Türk” telekanalına açıqlamasında Ankara Universitetinin professoru Yıldız Deveçi Bozkuş Türkiyə və Ermənistanın xüsusi nümayəndələrinin iki ölkənin dövlət sərhədində keçirilən son görüşünü şərh edərkən deyib.***

Onun sözlərinə görə, Türkiyə-Ermənistan münasibətlərinin normallaşma tempi Bakı ilə İrəvan arasında dialoqda irəliləyişlə paralel olacaq. ”Ermənistan tərəfinin Azərbaycanla sülhə hazır olduğu barədə bəyanatları hər iki məsələdə tezliklə müsbət irəliləyişə ümid verir”, -deyə professor qeyd edib.

Bozkuş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın İkinci Qarabağ müharibəsinin nəticələri fonunda Ankaranın İrəvanla münasibətlərdə yeni səhifə açmağa hazır olduğu barədə sözlərinə istinad edib: ”Prezident Ərdoğan açıq şəkildə bildirdi ki, İrəvan revanşizmdən, qonşu dövlətlərə qarşı mənfi münasibətdən əl çəksə, o zaman regionda yeni dialoq və əməkdaşlıq prosesi başlaya bilər. Eyni zamanda, ”3+3” dialoq platforması da bunun üçün stimul olardı”.

Ekspert Ankara ilə dialoqla bağlı İrəvanın mövqeyinin tədricən dəyişməsinə diqqət çəkib. ”Əvvəllər üçüncü ölkələrdə Türkiyə ilə dialoq qurmaqda israrlı olan Ermənistan xarici platformalardan istifadə etmədən birbaşa təmaslar istiqamətində mövqeyini yenidən nəzərdən keçirir”, -deyə Bozkuş bildirib.

O xatırladıb ki, Ermənistan tərəfinin təklifi ilə Türkiyə və Ermənistanın xüsusi nümayəndələrinin əvvəlki görüşləri Moskva və Vyanada keçirilib. ”Son 2 ildə iki ölkənin xüsusi nümayəndələrinin ilk görüşü dövlət sərhədində baş tutub. Danışıqların növbəti mərhələsinin Ankara və ya İrəvanda keçirilməsi tamamilə mümkündür”, -deyə Ankara Universitetinin professoru bildirib.

Eyni zamanda, Bozkuş bir daha vurğulayıb ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətni üzrə dialoqda irəliləyiş Ankara ilə İrəvan arasında dialoq üçün mühüm amil olaraq qalır. Bundan əlavə, münasibətlərin tam normallaşması üçün Türkiyə və Ermənistan bir sıra digər məsələlərdə, xüsusən də 1915-ci il hadisələri ilə bağlı konsensusa gəlməlidirlər.

Professor hesab edir: ”Azərbaycan torpaqlarının işğalı problemi həll edilib. Bundan başqa, Ermənistanda Serj Sarkisyan kimi radikal siyasətçilərin hakimiyyətdən getməsinin nəticələri açıq-aşkar müşahidə olunur. İrəvan tərəfdən Ankaraya müsbət siqnallar var. Məsələn, baş nazir Nikol Paşinyanın Ermənistanın gerbindəki Ağrı dağının təsviri ilə bağlı tənqidi açıqlamaları diqqətdən yayınmayıb. Türkiyə digər erməni rəsmilərinin 1915-ci ildə həlak olan ermənilərin siyahılarının olmaması ilə bağlı açıqlamalarını da diqqətə alıb. Ona görə də görünür ki, dialoq prosesi sürətlənəcək və biz xüsusi nümayəndələrin növbəti görüşü üçün daha iki il gözləməli olmayacağıq”.

Bozkuş normallaşma istiqamətində növbəti addımlardan birinin Türkiyə ilə Ermənistan arasında dəmir yolu əlaqəsinin bərpası olacağını istisna etməyib. O vurğulayıb: ”Bu yol daha mühüm nəqliyyat layihəsinin - Zəngəzur dəhlizinin bir hissəsi olacaq və regionun bütün ölkələrinin inkişafına töhfə verəcək”.

# ”Times of Oman” portalında 2-ci Şuşa Qlobal Media Forumu barədə məqalələr dərc olunub



Monday 29 / July / 2024
Oman T Tv World Business Sports Opinion Technology T-Mag Roundup

Global Media Forum on ‘Unmasking false narratives’ concludes in Azerbaijan

Monday 22/July/2024 18:51 PM
By: Times News Service

Listen

Shusha (Azerbaijan): Shusha, a major centre of Azerbaijani culture and music, saw the culmination of the II Global Media Forum on Tuesday (July 22, 2024).

“Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda keçirilmiş 2-ci Şuşa Qlobal Media Forumu hələ də dünya mediasının diqqət mərkəzindədir. Forumun iştirakçıları olan media nümayəndələri bu mötəbər tədbirdə müzakirə olunan aktual məsələlər, xüsusən Prezident İlham Əliyevin dünyada və bölgədə baş verən proseslər, ölkəmizlə bağlı həqiqətlər, hazırda medianın qarşısında duran əsas çağırışlarla bağlı fikirlərinə geniş yer ayırırlar. Omanın ”Times of Oman” nəşri 2-ci Şuşa Qlobal Media Forumu və dövlətimizin başçısının tədbirin açılışında iştirakçıların suallarını cavablandırarkən səsləndirdiyi fikirlərə geniş yer ayırıb. ”Times of Oman” nəşrində yayımlanan məqalədə artıq ikinci ildir təşkil olunan və geniş beynəlxalq auditoriyanı əhatə edən Forumun, həmçinin COP29 Sədrliyinin rəsmiləri ilə görüşmək, COP29-a hazırlıq məsələləri, iqlim dəyişikliyinə qarşı mübarizənin dəstəklənməsi və bir sıra aktual mövzularda ətraflı müzakirələr aparmaq imkanı yaratdığı vurğulanıb.

Qeyd olunub ki, 50-dən çox ölkədən media nümayəndələrinin qatıldıqları tədbirin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev media mütəxəssislərinin və ekspertlərin suallarını cavablandırıb, ötənilki Forumdan keçən müddətdə regionda və dünyada baş verən hadisələr barədə fikirlərini bölüşüb.

Məqalədə Prezident İlham Əliyevin regionda təhlükəsizlik məsələləri, işğaldan azad edilən ərazilərdə həyata keçirilən bərpa-yenidənqurma işləri barədə fikirlərindən sitat gətirilib: ”Yəni, biz - bu regionun xalqları özümüzü təhlükəsiz hiss edəcəyik. Buna əminəm, münaqişələr və qarşıdurmalar keçmişdə qalıb. Füzuli hava limanından buraya səfər edərkən siz gördünüz ki, biz nəhəng yenidənqurma proqramı həyata keçiririk və sizin gördükləriniz, bəlkə bu işlərin heç beş faizi deyil. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işləri ilə bağlı biz çox nikbinik və Azərbaycan cəmiyyəti də olduqca nikbindir və bu işlərə çox həvəslə yanaşır. Bu, hər bir ölkənin müvəffəqiyyətə nail olması üçün əsas amildir. Burada rahatlıq və təhlükəsizlik vacib amildir. Eyni zamanda, gözləntilər vacibdir. Cəmiyyət görür ki, uzun illər can atdığı məqsədlər artıq reallığa çevrilibdir”.

Yazıda dövlətimizin başçısının Azərbaycanın bərpaolunan enerji sahəsində atılan addımlar, ölkəmizin zəngin yaşıl enerji potensialı barədə fikirlərinə də geniş yer verilib: ”Biz ən böyük Günəş Elektrik Stansiyasını - 230 meqavat gücündə stansiyanı istifadəyə verdik. İndi isə 240 meqavatlıq külək elektrik enerjisi stansiyası ilə bağlı işlər yekunlaşır və tezliklə biz 240 meqavatlıq Günəş Elektrik Stansiyasının açılışını edəcəyik. Birinci layihə ”Masdar” şirkəti, ikinci layihə isə ”Acwa Power” şirkəti tərəfindən həyata keçirilir. Üçüncüsü isə BP tərəfindən inşa ediləcək. Yəni, bunlar dünyanın aparıcı enerji şirkətləridir. Bununla yanaşı, ötən ay Bakıda biz üç Günəş və külək elektrik stansiyasının təməlini qoyduq, ümumi həcm bir qiqavatdır. Biz bu sahədə çox böyük işlər görürük. Böyük potensialımız var, həm texniki, həm də iqtisadi potensialımız. Texniki baxımdan dənizdə külək enerjisi potensialı 157 qiqavatdır. Beynəlxalq Maliyyə Korporasiyasının hesablamalarına görə, iqtisadi baxımdan quruda Günəş və külək stansiyalarının potensialı, göstərir ki, biz 27 qiqavat həcm istehsal edə bilərik, yəni, həcm böyükdür”.

Məqalədə Prezident İlham Əliyevin media sənayesinin gələcəyi, bu sahədə süni intellektin rolu, o cümlədən süni intellektlə bir sıra manipulyasiyalara, ciddi təhlükələrə yol aça biləcəyi barədə fikirlərinin böyük maraqla qarşılandığı qeyd olunub. ”Zənnimcə, beynəlxalq səviyyədə belə bir mexanizm işlənib hazırlana bilər. Bu, heç bir halda söz azadlığının məhdudlaşdırılması kimi qəbul olunmayacaq. Beynəlxalq səviyyədə, BMT səviyyəsində, yaxud da ”Böyük 20”lik tərəfindən təşəbbüslər irəli sürülə bilər ki, buna son qoyulsun. Bu, çox ciddi bir təhdiddir və təşəkkür edirəm ki, siz bu mövzuya toxunursunuz”, - deyə dövlətimizin başçısının fikri oxucuların diqqətinə çatdırılıb. Bildirilib ki, 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun qatıldığı Forum iştirakçılar üçün birgə müzakirə və hərəkət platforması rolunu oynayır.

# Yaponiya və ABŞ Rusiya-Hindistan cütlüyünə qarşı



## DÜNYALARIN SAVAŞI

**Avstraliya, Hindistan, ABŞ və Yaponiyanın daxil olduğu "Quad" qrupu Cənubi Çin Dənizində (SCS) gəmilərin "qorxuducu və riskli manevrlərindən" narahat olduğunu bildirib. Ona görə də regionda təhlükəsizlik sahəsində əməkdaşlığı gücləndirəcək. Sənəddə Çindən bəhs edilmir. Lakin Pekin Cənubi Çin dənizinin demək olar ki, bütün su sahəsinə iddia etdiyi üçün tənqidlər ilk növbədə ona ünvanlanır.**

Yaponiya Xarici İşlər Nazirliyinin rəhbəri isə qeyd edib ki, sabitliyin qeyri-sabitliyində Ukraynada hərbi dairəsi olan Rusiya da günahkardır. Dehli isə buna heç bir etiraz etmir. Tokioda xarici işlər nazirləri səviyyəsində dördtərəfli görüş keçirilib. Avstraliyadan Penni Vonq, Hindistandan Subrahmanyam Caishankar, ABŞ-dan Antoni Blinken və Yaponiyadan Yoko Kamikava iştirak edib. Onlar birgə bəyanat yayıblar.

Kamikava vurğulayıb ki, Rusiyadan başqa digər güclər (Çin) özləri elan edərək təkcə Cənubi Çin dənizində deyil, Şərqi Çin dənizində də status-kvonu dəyişməyə çalışırlar. Burada heç bir qeyri-müəyyən diplomatik ifadələr nazirin kimə işarə etdiyini gizlədə bilməz. Axı Yaponiya ilə Çin arasında Senkaku adalarının (Diaoyu) kimə məxsus olması ilə bağlı mübahisə var.

Bir gün əvvəl ABŞ və Yaponiya arasında ayrıca görüş baş tutub. ABŞ-ın Yaponiyada yerləşən qoşunlarının komandanlıq sistemini gücləndirəcəyi açıqlanıb. Və burada artıq potensial düşmənin kim olduğu ilə bağlı heç bir qeyri-müəyyənlik yoxdur. Dənizlərdə "əzələlərini şişirdən" Çindən gələn təhlükə birbaşa vurğulanıb.

Tokiodan ayrıldıqdan sonra Blinken və ABŞ müdafiə naziri Lloyd Ostin başqa bir Amerika müttəfiqi ilə danışıqlar aparmaq üçün Filippinə gediblər. ABŞ prezidenti Cozef Baydenin administrasiyası noyabrda ABŞ-da keçiriləcək seçkilərə qədər Hind-Sakit okean regionunda Çinə qarşı mübarizəni genişləndirmək istəyir.

Blinkenin açıqlamalarından Vaşinqtonun dənizlərdə naviqasiya azadlığının təmin edilməsində Hindistan da daxil olmaqla müttəfiqlərinə və tərəfdaşlarına necə kömək etmək niyyətində olduğunu başa düşmək olar. Konkret olaraq, söhbət partnyor ölkələrin sularında düşmənin kəşfiyyatı və aşkarlanması üçün avadanlıqların onlara verilməsindən gedir.

"Reuters"in xəbərinə görə, Çin ona qarşı irəli sürülən ittihamlara cavab verməkdən çəkinməyib. Çin Xarici İşlər Nazirliyinin sözçüsü Lin Jian bildirib ki, bu ittihamlar yalandır və Vaşinqton və Tokio, eləcə də "Quad" öz silahlı qüvvələrinin dənizdə və quruda normal əməliyyatları ilə bağlı Çinə qarşı pis niyyətlə iddialar irəli sürüblər. Onun sözlərinə görə, Çin həmişə dinc inkişafın tərəfdarıdır, onun siyasəti müdafiə xarakteri daşıyır və beynəlxalq hüququn müdəalarına uyğundur.

Çin nümayəndələri də Quad-ı tənqid ediblər. Bu qruplaşma, onların fikrincə, ABŞ və Yaponiya tərəfindən məhz Asiya-Sakit Okean regionunun (APR) bəzi ölkələrini öz komandalarına cəlb etmək üçün yaradılıb. Bu problemi həll etmək üçün bütün vasitələr yaxşıdır. Asiya-Sakit okean regionunda regional güc olmayan ABŞ öz hərbi gəmilərini və təyyarələrini ora göndərir. Onlar Spratli və digər arxipelaqların yaxınlığında hərəkət edirlər, buna görə də bir sıra ölkələr arasında ərazi mübahisələri çoxdan yaranıb. Bununla da Vaşinqton ziddiyyətlər oduna yağ tökməyi və özünü regional ölkələrin xarici hücumlardan müdafiəçisi kimi göstərməyi bacarır. Çərşənbə axşamı günü Blinken və Austin Filippindən olan həmkarları ilə iki-üstəgəl iki dialoq apararkən Pekinin tənqidi tam təsdiqləndi. ABŞ Filippini mümkün Çin hücumundan müdafiə etmək öhdəliyini bir daha təsdiqlədi. Təbii sual budur: Hindistanın bununla nə əlaqəsi var? Axı o, "Quad" qrupunun üzvü olsa da, Vaşinqtonla heç bir rəsmi ittifaqa girməyib.

Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun Hindşünaslıq Mərkəzindən verilən məlumata görə, Hindistan öz milli maraqlarına cavab verən xarici siyasət prinsiplərinə sadiqdir. Bu baxımdan, "dörd" onun üçün faydalı ola bilər. Hindistana Rusiyadan da müstəqil olduğunu göstərməyə imkan verir. Yəni Dehli heç bir istiqamətə əyilmir. Üstəlik, dördlük Hindistanın baş naziri Narendra Modinə ölkənin xarici siyasətini "şaxələndirməyə" imkan verir. Amma bu proses Rusiyanın ziyanına baş tutmayacaq. Hindistan Rusiyanın etibarlı strateji tərəfdaşı olaraq qalacaq".

**VƏLİ**



**MƏTLƏB**
*Metlebsalahov@mail.ru*

# MTK-lar əhalini necə talayır? - ŞOK FAKTLAR

***Təzə ev almaq, yeni tikilidə yaşamaq hər bir insanın arzusudur. Xüsusilə iyirmi birinci əsrin bu günlərində bu arzu daha başadüşüləndir. İnternet əsrinin insanı üçün sovetdən qalma "xruşşovkalar"da, "Minsk", "Leninqrad", "Kiyev" tipli köhnə mənzillərdə yaşamaq daha prestij sayılmır. Sadaladığım bu evlərin ömrü də sovetin ömrü kimi çoxdan başa çatıb və hər kəs yeni tikililərdə rahat yaşamaq istəyindədir. İndi "novostroyka" deyilən yeni tikili binada ev sahibi olmaq həm də prestij sayılır bir baxımdan. Amma... amma bu yeni tikili məsələsində də əliəyrilik faizi kəllə çarxa çıxıb.***

Həm Mənzil Tikinti Kooperativləri (MTK) mənzillərin kvadrat hesablamasında əhaliyə qarşı dələduzluq edirlər, həm də qanunsuz "komendant pulu" yığımı ilə açıq-aydın cinayət əməli törədirlər. Bina sakinləri ilə heç bir xidmət müqaviləsi olmadan özlərindən elə "xidmət haqqı" müəyyənləşdirirlər ki, gözlər kəlləyə çıxır. Bunlara bu haqqı kim verib axı? Digər bir baxımdan, müqavilə ilə MTK-lardan alınan mənzillərin kvadratında əhaliyə qarşı açıq-aşkar cinayət edilir. Hər mənzildən ən azı 7-10 kvadrat metr kəsir olur. Müqavilə ilə alınan mənzillər çöldən-çölə hesablanır. Məsələn, müqavilədə yazılan 61 kvadratlıq mənzil sahəsi sonra kupça alınan zaman 50 kvadrata qədər azalır. Demək, MTK-lar hələ 1 otaqlı, az kvadratlı evlərdən gör əhaliyə neçə kvadrat kələk gəlirlər və neçə milyonlar qazanırlar.

Fikir verin: hətta bəzi MTK sahibləri "bir az da uzağa gedərək" hər evin kvadratmetri üçün aylıq 1 manat 50 qəpik ödəniş təyin edirlər. Bu isə o deməkdir ki, 130 kvadratmetrlik 3 otaqlı mənzil sahibi ayda 200 manata yaxın "kommunal pulu" ödəməlidir. Əsaslandırılması mümkün olmayan ödəniş məbləğidir. Əvvəlla, ortaya belə bir sual çıxır ki, MTK-lar bu məbləğdə ödəniş tələb edə bilərlərmi? Qanunvericilik nə deyir? Birmənalı şəkildə, MTK sahibləri "havadan götürülmüş rəqəmlərə" söykənib aylıq ödəniş tələb edə bilməzlər. Amma fakt odur tələb edirlər. Əslində isə, MTK sahibləri ayrıca, yəni sakinlərin və ya onların təmsilçilərinin razılığı olmadan sərbəst şəkildə aylıq ödəniş məbləğini müəyyənləşdirmək hüququna malik deyillər. Mənzil Məcəlləsinin 109.5-ci maddəsində qeyd edilir ki, "kooperativ binanın tikintisi və yenidən qurulması tam başa çatdıqdan, həmin binada mövcud olan bütün yaşayış və qeyri-yaşayış sahələrinə mülkiyyət hüququ qanunvericilikdə müəyyən olunmuş qaydada mənzil-tikinti kooperativinin üzvlərinə keçdikdən sonra, altı ay ərzində mənzil-tikinti kooperativi qanunvericiliklə müəyyən olunmuş qaydada ləğv edilməli və ya mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinə çevrilməlidir."

Elə həmin məcəlləyə əsasən, "yeni binalarda daşınmaz əmlak kompleksini birgə idarə etmək, çoxmənzilli binanın ümumi əmlakının istismarını, ona sahibliyi, ondan istifadəni və qanunvericiliklə müəyyənləşdirilmiş hədlərdə barəsində sərəncam verilməsini təmin etmək məqsədilə çoxmənzilli binanın sahə mülkiyyətçilərinin könüllü birliyi mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti hesab edilir".

Bu isə o deməkdir ki, bina istifadəyə verildikdən 6 ay sonra idarəetmədə həmin tikilidəki mənzil sahibləri də iştirak etməlidirlər. Təəssüf ki, bu qaydalar təhvil alınmış, yəni dövlət qeydiyyatı olan binalara aid hesab edildiyindən, "kupçasız binalar" bu şərtləri çox əksər hallarda pozurlar. Elə kupçalı binalarda da həmin vəziyyətdir. "Novostroyka"dırsa, vəssalam! Daha konkret, aylıq ödənişlərə gəldikdə isə, mövcud qanunvericiliyə əsasən, dövlət mənzil fondu üzrə yaşayış sahələrinə görə haqqın miqdarı özəl mənzil fondu üzrə isə mənzil mülkiyyətçiləri müştərək cəmiyyəti və ya ixtisaslaşmış istehlak kooperativi tərəfindən müəyyən olunur. Yəni, MTK sahibləri bina sakinlərinin razılaşmadığı aylıq ödəniş məbləği təyin edə bilməzlər.

Amma bugünkü reallıq ondan ibarətdir ki, MTK-lar aylıq ödənişi bahalaşdıranda heç sakinlərin fikrinə də ehtiyac duymurlar. Digər bir baxımdan, yeni tikililərdə, hətta "kupçalı" binalarda işıq pulunu MTK-lar özləri "yazırlar". Komendant sakinin işıq sayğacını özü "yoxlayır", məbləği də özü yazıb sakinə təqdim edir. Niyə??? Bəli, vəziyyət belədir: əhaliyə verilən enerji əhali qrupu üçün deyil, sırf hüquqi şəxslər, yəni qeyri əhali qrupu üçün hesablanan enerjidir. Əhalinin sərf etdiyi elektrik enerjisinin qiyməti də qeyri əhali qrupu üzrə hesablanır. MTK-lar bununla həm öz xərclərini ödəyir, həm də əhali hesabına varlanırlar.

Və gələk sona. Bəs aidiyyatı qurumların bütün bunlardan xəbəri varmı? - mümkün deyil ki, olmasın. Bəs nədən tədbir görmürlər, MTK-ların bu cür cinayət dolu fırıldaqçılıq əməllərinə niyə göz yumulur? Bu da cavabsız, amma sətiraltı cavabı bəlli olan suallardan biri...

# “Fransanın qərəzli ”oyunu” məkrli siyasətinin nəticəsidir”

“Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi ardıcıl tarixi Qələbələrdənsonra baş verən proseslər beynəlxalq hüquq və prinsiplərə ”hörmət edən” bir sıra Qərb dövlətlərinin, təşkilatlarının əsl simasını ortaya qoydu. Onların məsələlərə mahiyyətinə görə və ya hüququn aliliyi nöqteyi-nəzərdən deyil, korporativ maraqlar çərçivəsindən yanaşdıqları bir daha bəlli oldu. Suverenliyini bərpa edən, separatizmə son qoyan Azərbaycan əldə etdiyi nəticələrə görə ona qarşı qərəzli mövqelərin sayı artdı”. Bu sözləri SİA-ya açıqlamasında YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev deyib. O bildirib ki, Fransa başda olmaqla bir sıra qərb ölkələri saxta ermənipərəstlik mövqelərini ortaya qoymaqda davam edirlər. Fransanın sərsəm ”rəhbərliyi” ilə başladılan kampaniya günbəgün daha da çirkin və qərəzli xarakter alır. Anti-Azərbaycan təbliğata insan hüquq və azadlıqlarının qorunmasını əsas prinsipləri elan edən təşkilatların cəlb edilməsi isə riyakarlığın pik həddi sayıla bilər. Fransa öz xarici siyasətində ardıcıl buraxdığı nöqsanlar hesabına bu gün dünyaya özününəsl üzünü göstərmişdi. Azərbaycan öz uğurlu xarici siyasəti nəticəsində Fransanın yüzillərdi həyata keçirdiyi kolonist siyasəti dünyaya yenidən göstərmişdir. Nəticədə Fransa atdığı addımlara görə artıq beynəlxalq siyasətin oyunçusu kimi nüfuzunu itirib, belə olduqda onlar anti-Azərbaycansiyasətini həyata keçirmək üçün digər Avropa ölkələrini prosessə cəlb etməyə çalışır. Bu gün reallıq ondan ibarətdir ki, artıq Fransa Azərbaycan üçün ikitərəfli münasibətlərdə məqbul hesab ediləcək ölkə kimi hörmət və etibarını itirib. Bu ölkə Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı ədalətsiz addımlar atmaqda davam edir. Fransa faktiki olaraq müstəqil Azərbaycan dövlətinin maraqları əleyhinə fəaliyyət göstərir, anti-Azərbaycan siyasəti yürüdür və açıq şəkildə Ermənistanı hərbi təxribat törətmək üçün addımlar atmağa sövq edir.










Fransanın ölkəmizə qarşı yürütdüyü təxribat xarakterli fəaliyyəti biz 2024-cü il iyul ayının 26-da Paris Yay Olimpiya Oyunlarının açılış mərasimində də müşahidə etdik. Belə ki, Fransanın ”France 2” telekanalında canlı yayımında aparıcı Loran Delaus Azərbaycan idmançılarına qarşı təxribat xarakterli açıqlamalar verib. Erməni komandasının keçidi zamanı kanalın aparıcısı öz simpatiyasını gizlədə bilməyib: ”Ermənistan, bizim erməni dostlarımız, tarixən fransızların ürəyinə yaxın bir ölkə”. Aparıcı həmçininQarabağdakı ”qondarma rejim”in tarixdən silinməsi ilə bağlıtəxribatçı fikirlər səsləndirib. Bu sözlər Azərbaycan vəErmənistan idmançılarının keçidi kontekstində deyilib və buda Azərbaycan ictimaiyyətinin mənfi reaksiyasına səbəbolub. Bunun ardınca Azərbaycan komandasının keçidizamanı aparıcı ölkəmizi ”Ermənistanla ərazi məsələsindəmünaqişədə olan Qafqaz respublikası” kimi təqdim edib. Bu isə öz növbəsində şərhçinin Ermənistan komandası ilə bağlı fikirlərinə münasibətdə kəskin ziddiyyət təşkil edib və qərəzli olmasını göstərib.

Birincisi, ”Dağlıq Qarabağın Azərbaycan ordusu tərəfindən süqutu” ifadəsinin işlədilməsi açıq-aşkar Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik, habelə, beynəlxalq hüququn pozulmasıdır ki, Fransa bu tipli mülahizələri ”siyasi həyasızlıq” səviyyəsində sürməkdən hələ də çəkinmir. Çünki qeyd olunan ərazi 30 ilə yaxın idi ki, işğal altında idi. Fransa başda olmaqla BMT TəhlükəsizlikŞurasının daimi üzvlərinin qəbul etdiyi 4 qətnamə ilə bu işğal faktı təsdiqlənib. Fransa özü də Azərbaycan ərazibütövlüyünü rəsmi şəkildə dəstəkləyib. İkincisi, Azərbaycanı”ərazi məsələsində Ermənistanla toqquşan Qafqaz respublikası” kimi təqdim etmək açıq qərəzdir. AzərbaycanlaErmənistan arasında ərazi məsələsi böyük ölçüdə həll edilib. Yəni münaqişənin müharibə etapı bitib. Azərbaycan heç vaxt hərbi əməliyyatları Ermənistanın beynəlxalq hüquqla tanınanərazilərinə keçirməyib. Buna görə də bu istiqamətdə nə isə demək doğru deyil.

Ümumiyyətlə, idman elə sahədir ki, siyasətdən, düşmənçilikdən uzaq olmalı, sülh, əmin-amanlıq ehtiva etməlidir. Amma bəzi ölkələr birlik, bərabərliyi simvolizə edən Yay Olimpiya Oyunlarını siyasi ”təbliğat” vasitəsinə çevirir. Eynilə rəsmi açılış mərasimində Fransanın etdiyi kimi.Tarixən Olimpiya Oyunları həmişə sülhə və müharibəyə son qoymağa çağırıb. Lakin Fransa televiziya kanalı məqsədyönlü şəkildə siyasi qərəz nümayiş etdirərək Olimpiya prinsiplərini pozdu. Sual yaranır: niyə açılış mərasimində Fransa komandası keçəndə müstəmləkəçilik və müstəmləkəçilik mövzuları çəkilmir? Parisin əsrlər boyu başqa xalqlara verdiyi bütün ağrılar xatırladılmır? Təbii ki, bu proses bir daha Fransanın ”fəaliyyətində” çirkin müstəmləkə ideyalarından ”bəhrələnməsini” göstərir.

Beləliklə, Paris Olimpiya Oyunları tarixə ən qalmaqallı, təxribatlarla dolu, pis təşkil olunmuş, insanlığa, bəşəri dəyərlərə hörmətsizlik göstərən, mənəvi dəyərləri təhqir edən oyunlar kimi düşəcək. Eyni zamanda, Makron hakimiyyətiidmandan belə öz çirkin məqsədləri üçün istifadə etdiyinigizlədə bilmir. Bir sözlə, dünyada ayırıcı xətləridərinləşdirməyə çalışan, müstəmləkəçi siyasətdən əl çəkmək istəməyən, xalqların azadlıq mübarizəsini boğan, ksenefobiyaya geniş meydan verən, dini, etnik zəmində qarşıdurmalar yaradan Makron Fransasından bundan artığını gözləmək mümkün deyildi.

Fransa bir daha özünün çirkin siyasətinin qurbanı olduğunu hər kəsə nümayiş etdirdi: ”Azərbaycana, qardaş Türkiyəyə qarşı düşmənçilik siyasəti aparan, bu ölkələrin daxili işlərinə qarışan, rəsmi Paris min illiklərə dayanan sülhoyunlarını belə sadə qaydada təşkil edə bilmədi. Buna sözsüz ki, Makron hakimiyyətinin mahiyyəti imkan vermədir. Çünkio ancaq xalqları müstəmləkədə saxlamaq, separatizmi dəstəkləmək, suveren ölkələrin hüquqlarına müdaxilə etməyi özünün əsas istiqaməti kimi müəyyənləşdirib”.

Ölkəmizə qarşı sərgilənən açıq təxribatla bağlı olaraq Gənclər və İdman Nazirliyi ilə Milli Olimpiya Komitəsinin bəyanatı verilib. Bəyanatda bildirilir ki, bu, faktiki olaraq Olimpiya Xartiyasının Əsas Prinsiplərinin pozulmasıdır. Həmin prinsiplər son illərdə Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının bir neçə qətnaməsi ilə, o cümlədən açıq şəkildə ”Olimpiya Xartiyasının əsas prinsiplərinin etirafı” (A/RES/78/10) ilə tanınıb və dəstəklənib. Xartiyada açıq şəkildə qeyd edilib ki, ”BOK-un missiyası olimpizmi bütün dünyada təbliğ etmək, Olimpiya Hərəkatına rəhbərlik etmək, idmana və idmançılara qarşı hər hansı siyasi və ya kommersiya istismarına qarşı çıxmaqdır. Təxribatla bağlı Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsi tərəfindən Beynəlxalq Olimpiya Komitəsinə rəsmi olaraq etiraz məktubu göndərilib. Məktubda qeyd olunub ki, dövlət telekanalının Azərbaycana qarşı bu cür münasibəti Olimpiya Xartiyasının açıq-aşkar pozulmasıdır. Bu cür təbliğat oyunların ruhuna zidd olmaqla yanaşı, Azərbaycan və Ermənistan arasında sülh səylərini pozmağa xidmət edir. Buna görə də BOK-dan Paris-2024 Olimpiadası zamanı idmanın siyasiləşdirilməsinə qarşı qəti mövqe göstərilməsi, açıq bəyanat verməklə Fransa hökumətinə, Fransa Milli Olimpiya və İdman Komitəsinə, eləcə də adıçəkilən telekanala etiraz bildirilməsi məsələsi irəli sürülüb.

Son olaraq qeyd edək ki, Fransa və onunla ”həmfikir” olan ölkələr heç zaman ölkəmizin əldə etdiyi uğurlara kölgə sala bilməyəcək və müəllifi Azərbaycan olan region reallıqlarına təsir edə bilməyəcəkdir. Bütün dünyada bilsin ki, heç kim Azərbaycanla təhdid dilində danışa bilməz və ona diktə edə bilməz”.

***Səbinə Hüseynli***







***Çoxdandır ölkəmizə qarşı ədalətsiz münasibətinin nəticəsi olaraq yalnız bəd xəbərlərin gəldiyi Fransanın paytaxt şəhərini "Paris-2024" XXXIII Yay Olimpiya Oyunlarına qatılan azərbaycançı idmançıların bir-birinin ardınca qələbələri Azərbaycan sədasına bürüyüb. Fransa və dünya artıq ikinci dəfə Azərbaycan bayrağını Paris zirvəsində seyr etməli və Dövlət Himnimizi dinləməli oldular.***

# Parisdən Azərbaycana ikinci qızıl medal

isə





Ötən günlərdə 73 çəki dərəcəsində olan cüdoçumuz Hidayət Heydərov fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq Parisdə Azərbaycan bayrağını qaldırdı və Himnini səsləndirdi. Avqustun 1-də isə Azərbaycan cüdoçusu Zelim Kotsoyev "Paris-2024" XXXIII Yay Olimpiya Oyunlarında qızıl medal qazanıb.




100 kiloqram çəki dərəcəsində mübarizə aparan Avropa və dünya çempionumuz qızıl medal uğrunda qarşılaşmada gürcüstanlı rəqibi İlya Sulamanidzeyə ipponla qalib gələrək Olimpiya çempionu olub.

Dünən aldığımız bu şad xəbərlərin sevincini yaşadıq. Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva artıq ikinci qızıl medalçımız cüdoçu Zelim Kotsoyevə zəng edərək Olimpiadanın qızıl medalını qazanması münasibətilə təbrik edib, ona gələcəkdə də yeni uğurlar arzulayıblar. Dövlətimizin başçısı Azərbaycan idmançılarının Olimpiya Oyunlarında cüdo idman növü üzrə ilk dəfə iki Olimpiya qızıl medalını qazandıqlarını qeyd edərək, bu münasibətlə təbrikləri eyni zamanda komandanın məşqçilərinə və Cüdo Federasiyasının rəhbərliyinə çatdırıb.

Telefon zənginə və səmimi təbriklərə görə dövlətimizin başçısına və birinci xanıma minnətdarlığını bildirən Zelim Kotsoyev öz qələbəsi ilə Azərbaycan Bayrağını ucaltmaqdan və Himnimizi səsləndirməkdən fəxr hissi keçirdiyini deyib. O, yeni qələbələr qazanmaq üçün bundan sonra da bütün səylərini əsirgəməyəcəyini vurğulayıb.

Qeyd edək ki, Olimpiadada mübarizəyə səkkizdəbir final mərhələsindən başlayan cüdoçumuz birinci görüşdə polşalı Pyotr Kuçera ilə qarşılaşıb. Rəqibinə ipponla qalib gələn Avropa və dünya çempionumuz adını dörddəbir finala yazdırıb. Bu mərhələdə İsrail təmsilçisi Peter Palçiki məğlub edən Kotsoyev yarımfinala vəsiqə qazanıb. İdmançımız yarımfinalda özbəkistanlı Muzaffarbek Turoboyevə də qalib gələrək finala yüksəlib.



Beləliklə, qısa zaman kəsiyində artıq ikinci dəfə Fransada Azərbaycan bayrağı dalğalandı, Dövlət himnimiz səsləndi. Bu Azərbaycanda və dünyada yaşayan bütün soydaşlarımızın qəlbini qürur hissi ilə doldurdu.

Hidayətlə Zelimin olimpiadada göstərdiyi rəşadət Parisdə Azərbaycan oğullarının gücünün, bacarıq və qabiliyyətinin ümumi obrazını yaratdı. Eləcə də gözlər önünə Şuşanın düşməndən azad olunması zamanı azərbaycanlı igidlərin əlbəyaxa döyüşünü, Şuşanın yerləşdiyi yüksək mövqeyə dırmanaraq qalxmalarını, sinələrini daşlara sipər etmələrini xatırlatdı.

Bəli, bizim övladlarımız belə güclü, hünərli, qəhrəman oğullardır. Elə bu səbəbdən də artıq 4 ildir ki, tariximizə qələbə ardınca qələbə yazılır: istər müharibə meydanında, istər, siyasətdə, istər də olimpiya tatamisində.

Bütün idmançılarımızla qürur duyuruq. Hər birinin uğurunun bol olmasını arzulayırıq.

***Mətanət Məmmədova***

# Seçki zəiflərin meydanı deyil

## Namizədlikləri qeydə alınmayanların demaqoqluq etmələri onların təsir altında olmalarından irəli gəlir

Seçkiyə qatılmaq yaxşı haldır, təbii ki, gücün və imkanın ola. Əgər gücün və dəstəyin yoxdursa meydana girmək və "mən də gəldim" demək yanlışlıqdır. Təəssüflər olsun ki, elə şəxslər var ki, seçkiyə niyə gedir, hədəfi və məqsədi nədən ibarətdir, seçki platforması varmı, insanlarla təmas qura və seçki platformasını onların diqqətinə çatdıra biləcəkmi? Bu vacib şərtləri çoxluq bilmir. Sadəcə, cibində 5-10 manat pulu və məhləsində bir neçə dost-tanışı var və bununla düşünür ki, seçkiyə qatılıb nəyəsə nail ola bilər. Elə şəxslər də var ki, sosial şəbəkələrdə canlı yayımlar açır, müxtəlif düşük, abırsız hərəkətlər etməklə, özünə like qazanır və o da hesab edir ki, artıq deputatlığa namizədliyini irəli sürə bilər. Əslı olaraq namizədliyi qeydə alınmayan da yenə də sosial şəbəkələrə çıxıb müxtəlif iyrənc pozalar verir, hay-küy salıb, demaqoqluq edir. Xüsusilə də, özünü psixoloq, politoloq, siyasi şərhçi olaraq cəmiyyətə sırımağa çalışan üzləri qara olmuşlar var ki, bütün günü sosial şəbəkələrdə deputatlığa namizədliklərinin qeydə alınmamasından gileylənir, böhtanlar səsləndirir, yalanlar söyləyirlər. Sanki bunlar böyük zaddılar və seçki marafonuna qoşulsalardı dağı dağ üstə qoyacaq, böyük səs çoxluğu qazanıb, deputat seçiləcəklərmiş. Bu yerdə deyiblər dağılasan a dünya, gör nə biabırçı ünsürlərin əndərəbadi davranışları ilə rastlaşmalı oluruq. O gün bir diş təmizləyən sosial şəbəkə istifadəçisi yazıb ki, Dairə Seçki Komissiyası bilərəkdən onun namizədliyini qeyd almayıb. Sonra da özünün bahalı və tanınmış şəxs olmasından bəhs edir. Yazır ki, onu məhəllənin iti, küçənin yiyəsiz pişiyi, tində dayanıb siqaret üfürən, sosial şəbəkədə qurcalanan məxluqlar yaxşı tanıyırlar. Guya həmin kateqoriyadan olanlar, onu görəndə deyirlərmiş ki, "kaş siz bizim deputatımız olasınız". Əminliklə demək olar ki, onun bu sözlərini oxuyanlar başlarını bulayıb gülürlər.







### Sənətə, peşəyə görə seçici səsi qazanmaq mümkün olsa idi...

Əgər sənətə, peşəyə görə seçici səsi qazanmaq mümkün olsa idi müəllimlər, musiqiçilər, xüsusilə də müğənnilər, TV aparıcıları, qəsəbənin, kəndin ağsaqqalları daha tanınmışdılar və onların yəqin ki, insanların dəstəyini qazanmaqda problemləri olmaz. Aygün, Roya, Nadir Qafarzadə, Manaf Ağayev, Ədalət Şükürov və digər şou əhlinin nümayəndələri bir neçə mahnı oxumaqla rekord qıra bilərlər. Ona görə də, xatırlatmaq üçün qeyd etmək lazımdır ki, seçkilər çətin və ağır prosesdir. Necə deyərlər, hər adamın bacara biləcəyi bir proses deyil. Bəli, qanun hər kəsə seçkilərdə şansını yoxlamağa imkan verir. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinin birinci bəndində deyilir: "Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır". Yəni, seçki prosesinə qoşulmaq üçün heç bir çətinlik və ya əngəllər yoxdur. Yetər ki, qaydalara və qanunlara əməl edilsin. Lakin çoxları qanunları bilmədiyindən səhvlərə yol verir və nəticədə DSK-lar onların namizədliklərini qeydə almaqdan imtina edirlər. Namizədin qeydə alınmasından imtina edilməsi üçün əsas yalnız SM-nin 54.1-54.7-ci maddələrində göstərilən sənədlərin lazımi qaydada rəsmiləşdirilməməsi və ya namizədlərin irəli sürülməsinin qanunvericiliklə müəyyən edilmiş qaydasının pozulması ola bilər. Əgər sənədlərdəki səhvlər və pozuntular siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi tərəfindən düzəlişlər yolu ilə aradan götürülə bilərsə, müvafiq seçki komissiyası namizədi 5 gün müddətində bu haqda xəbərdar edir və müvafiq düzəlişlər edildikdən sonra namizədin irəli sürülməsini təsdiqləyir. Bütün namizədlər qanunvericiliyə görə bərabər hüquqa malikdirlər və bərabər öhdəliklər daşıyırlar. SM-nə görə, namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanmalıdır. Minimal hədd azı 450 imza göstərildiyi halda, maksimal hədd nəzərdə tutulmamışdır. Eyni zamanda, Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən müraciət edən şəxslərə veriləcək imza vərəqələrinin sayına heç bir məhdudiyyət qoyulmur. SM-nin 57.1-ci maddəsinə əsasən, imza toplanması prosesində seçiciləri imzalamağa məcbur etmək, imza atmağa imkan verməmək və ya buna görə onları hər hansı formada mükafatlandırmaq qadağandır. İmza vərəqələri SM-nin müvafiq əlavələrinə uyğun hazırlanmalı, imzaların toplanması zamanı məcəllənin 57.4 və 57.8-ci maddələrinin tələblərinə ciddi əməl edilməlidir. Yadda saxlanılmalıdır ki, seçici imza vərəqəsində imza edərkən soyadını, adını, atasının adını, doğum tarixini, yaşayış yerinin ünvanını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını və nömrəsini, verilmə tarixini, imza etdiyi tarixi göstərməlidir. İmza vərəqələri müvafiq seçki komissiyasına təqdim edilərkən nömrələnməli və qovluq formasında səhifələnməlidir. İmza vərəqəsi imza toplandıqdan sonra imza toplayan şəxs və namizəd tərəfindən imzalanmalıdır ki, bu da imza vərəqələrinin düzgünlüyünün yoxlanılması prosesində nəzərə alınan əsas şərtlərdən biridir. Bundan əlavə, imza qoymazdan əvvəl fərdi qaydada imza toplayan şəxs imza vərəqəsində soyadını, adını, atasının adını, yaşayış yerinin ünvanını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını və nömrəsini, verilmə tarixini göstərməlidir.

### İndiki hay-küyçülərin də danqıltıları keçib gedəcək

Seçki Məcəlləsinə görə, namizədin qeydə alınması üçün müvafiq sənədlərlə birlikdə namizədin ilkin maliyyə hesabatı da təqdim edilməlidir. Ümumiyyətlə, hər bir namizəd seçki marafonuna qoşulduğu andan və seçkilərin nəticələri elan olunana qədər 3 dəfə maliyyə hesabatı verir. Yoxlanılma proseduru zamanı əsas mərhələlərdən biri də imzaların yoxlanılmasıdır. Seçki təcrübəsinin təhlili göstərir ki, imzaların yoxlanılması proseduru ən çox mübahisə doğuran problemlərdən biridir. Belə ki, imzaların konkret şəxs tərəfindən icra olunduğunu müəyyən etmək üçün ekspertin ixtiyarında həmin şəxsin imza nümunələri olmalıdır. Məhz ona görə də imza vərəqələri yoxlanılarkən ekspertin qarşısında imzaların konkret şəxs tərəfindən qoyulması sualı deyil, həmin imza vərəqələrində bir şəxsin bir neçə şəxsin adından imza etməsinin müəyyən edilməsi sualı durur. Yəni, burada imzaların fərdi eyniləşdirilməsi aparılmır, onların öz aralarında müqayisəsi aparılır ki, bu da xətşünaslıq ekspertizasının predmetinə aid olan suallardan biridir.

Bir sözlə, nəzərdə tutulan prosedurlar qanunlara söykənir. Hər hansı bir yanlışlıq qanun pozuntusu olaraq qiymətləndirilir və müvafiq qərar qəbul edilir. Elə açıq fikirli, özünə hörmət göstərən şəxslər var ki, onlar namizədliklərini irəli sürür, lakin sənədlərin araşdırılması zamanı qüsurların olduğu aşkarlanır və namizədliyi qeydə alınmır. Şəxs qərarı anlayışla qarşılayır və sakit şəkildə kənara çəkilir. Müəyyən qüvvələrin təsiri altında olan və ya özü haqqında yüksək fikrə düşən şəxslər isə fərqli yol tuturlar. Qeyd etdiyim kimi, hay-küy qaldırıb, boşboğazlıq edir və hansı əxlaqın, mənəviyyatın sahibi olduqlarını göstərirlər. Beləleri təbii ki, hər zaman olub. Ona görə də, indiki hay-küyçülərin də danqıltıları keçib gedəcək. Əsas odur ki, yolumuz qələbələrə gedən yoldur. Sentyabrın 1-də keçirilməsi planlaşdırılan parlament seçkiləri azad və demokratik şəkildə baş tutacaq və müstəqil Azərbaycanın tarixinə növbəti zəfər seçkilərindən biri olaraq yazılacaq.

***İLHAM ƏLİYEV***

# Sağ ol, Yaylagül!

***Hamiləlik yaradılış möcüzəsidir, hamilə qadın da o yaradılışın ən böyük möcüzəsi. Yaylagül bu möcüzələrin ən mübarizi, ən cəsurudur. Bir neçə gündür bizi qürurlandıran, gülümsədən, sevindirən, Azərbaycan Olimpiya Oyunlarındakı oxçuluq yarışına göndərdiyi ilk idmançısı Yaylagül haqqında yazmağı borc bildim özümə. Həm bir jurnalist, həm bir qadın, həm də 3 uşaq anası, dəfələrlə hamiləlik keçirmiş bir qadın kimi.***

Qadın anadır, bütün bəşəriyyət onun bətnindən törəyib. Yaradan ona elə bir qüdrət verib ki, bu qüdrətin eynisi yalnız özünəməxsusdur. Qadın da yaradır, eynilə Tanrı kimi. Bətnində yeni bir can, yeni bir insan yaradır. İlmə-ilmə toxuyur, hüceyrə-hüceyrə inşa edir, damla-damla böyüdür balasını. 9 ay boyunca bir damla mayedən var edir bətnindəki insanı. Qadın bətni yaradılışın özüdür, təməlidir, özəyidir.

Kişilər hamiləliyi sıradan, sadə, adi bir proses sanır bəzən, sanmayın. Ən az bir dəfə hamilə olan qadınlardan soruşun o prosesi. Yazımın girişində yazdım hamiləliyin möcüzə olduğunu. Bəs bu möcüzə 7 ayında bizə nəyin hesabına başa gəlir, onu bilirsinizmi?














Körpə ana bətnində olarkən 7 ayında orqanları və bədən əzaları tam formalaşır. Bu balaca insanın boyu 41-42 santimetrdir, yəni təxminən 2 qarış. Çəkisi isə orta hesabla 1 kq 500 qram civarında olur. Yəni qadın bu ayda qarnında daimi olaraq dölyanı mayesi ilə bərabər təxminən 2 kilodan artıq çəki gəzdirir. Bəzən hamilə qadına yaşlı nəsil "yüklü" deyir. Biz onu yük kimi görmürük, alışırıq və o çəki bizim üçün normala çevrilir.

7-ci ayında körpənin əl dırnaqları, saçları tam formalaşıb, O balaca barmaqları ilə arabir içəridən uşaqlığın divarını da qıdıqlayır. Beyin və sinir sistemi tam inkişaf etdiyi üçün bunu şüurlu şəkildə edə bilir. Atanın, ya da ananın səsinə olan reaksiyası, əl-qol hərəkətləri ilə qarına, orqanlara təzyiq göstərməsi də bunu sübut edir. Artıq böyüdüyü üçün yeri daralıb, ona görə hərəkətləri də daha çox hiss edilir, çünki o əvvəlki kimi dölyanı mayedə "üzə" bilmir, əl-qolunu tərpətmək üçün yeri məhduddur, buna görə də gərnəşəndə, hərəkət edəndə anaya daha çox təzyiq edir.

Əzələləri bu ayda çox güclənir və gücləndikcə zərbələri daha sərt olur. "7 aylıq körpənin zərbəsi nə qədər sərt ola bilər ki?" deyə düşünür insanlar, amma içinizdə yaşayan bir canlının ağciyərinizə, sidik kisənizə tərəf atdığı bir təpiyi düşünün və bunun insana hiss etdirəcəyi ağrını hesablayın. Hamiləliyin 7-ci ayında bu təzyiqlərə görə həzmsizlik, qəbzlik, ayaqda damar qaçmalar, təngənəfəslik, ombada, çanaq sümüyündə və beldə, habelə onurğada kəskin ağrılar olur.

Oxatma idman növü diqqət tələb edən sahədir. Nəfəsini düzgün tənzimləməli, diqqətini düzgün kökləməli, bədənini tarım saxlamalısan. Bu idman növünün ana maddəsi səbr, nizam-intizam və konsentrasiya prinsiplərinə əsaslanır. Bu idman növü fiziki-mənəvi güc və dəqiqlik tələb edir. Oxatma zamanı diqqəti yayındıran şeylər hədəfdən uzaq düşmək üçün kifayətdir.

Yaylagülün diqqətini yayındırmaq üçün balasının bircə hərəkəti kifayət edərdi. Dediyim kimi, bu həftədə körpənin hərəkətləri sərt olur. Balası gərnəşib ağciyərinə təzyiq göstərsə nəfəsalması çətinləşər, diqqəti pozula bilərdi. Yaylagülün peşəkarlığı o qədər yüksək olub ki, asanlıqla turu keçib, birinci turda məşhur çinli rəqibi An Qixuanaya qalib gələrək 2-ci tura yüksəlib. Amma Yaylagül 1/16 finalda olduqca güclü rəqiblə yarışırdı, komanda yarışlarında Tokio Olimpiadasının bürünc medalçısı, Dünya və Avropa çempionu Mişel Kroppenə qarşı. Yaylagül ikinci turda 2:6 yenilərək çıxışını tamamladı.

Onun olimpiadada hamilə olaraq iştirakı bütün dünyada maraqla qarşılanıb. Haqqında dünya mətbuatı yazdı, manşetləri Yaylagül bəzədi bir neçə gün. Yaylagüldən başqa daha bir iştirakçı da 7 aylıq hamilə idi - misirli qılıncoynadan Nada Hafez. İdmançı 1/8 finala yüksəlməyi bacardı, amma finalda Hafez koreyalı rəqibi Çunq Hayunqa 7:15 hesabı ilə uduzdu. Amma o da öz xalqının və dünya qadınlarının gözündə ən az Yaylagül qədər qalibdir.

Yaylagülün hamilə olaraq olimpiadada iştirakını qınayanlar da oldu. Elə öz cameəmizdən, jurnalistlərdən oldu qınayanlar, amma qarşı cinsdən. Onun olimpiadada iştirakını da, onun hamilə olduğunu əks etdirən fotoların paylaşanları da "düşük" adlandıran kişi jurnalist də tapıldı. Adını çəkməyi lüzüm bilmədim, heç onun yazdığını - internetdə "əl-əl dolaşan", sonradan ictimai qınağa tab gətirməyib sildiyi statusunun surətini də bu yazıya əlavə etməyəcəm. Onun sözləri, düşüncəsi Yaylagülün zəfərinin və hamiləliyinin yanında o qədər cılız görünür ki...

Sən bizim qəhrəmanımızsan, sən bütün dünya qadınların təbəssümlə izlədiyi, haqqında danışdığı, fəxr etdiyi, hamiləliyin xəstəlik yox, möcüzə olduğunu bütün geri zəkalılara sübut edən qəhrəmanımızsan. Yaxşı ki, səni tanıdıq, yaxşı ki, bətnindəki 7 aylıq körpənlə o kamanı əlinə aldın, o yayı çəkdin, o oxu atdın və özünü bizə tanıtdın. Sağ ol, Yaylagül!

***Lalə Mehralı***

# Mədəni irsin talanması vandalizm aktıdır!

## İşğal dövründə mədəniyyət nümunələrini oğurlayanlar yalnız Ermənistan deyil, həm də Fransa və ABŞ-dır

30 illik erməni işğalı nəticəsində Azərbaycanın şəhər və qəsəbələri dağıdılmış, mədəniyyət nümunələri, tarixi abidələri, məscidlər, mədrəsələr, məbədlər yerlə-yeksan edilmişdir. Bu vandal əməllərə bəzi aparıcı dövlətlərin, beynəlxalq təşkilatların susqunluq nümayiş etdirməsi ikili standartların nümunəsidir. Bu, həm də onu təsdiq edir ki, ermənilərin işğal etdikləri Azərbaycan ərazilərində törətdikləri vandalizm aktlarında bəzi dövlətlərin birbaşa və dolayısı ilə əlləri var. Hətta araşdırmalarla sübut edilir ki, Qarabağdan oğurlanan, talan edilən Azərbaycanın mədəni irsinin nümunələri Fransaya, Hindistana, Yunanıstana, ABŞ-a və digər ölkələrə daşınıb. Təbii ki, belə əməl terorçularla əməkdaşlıq, işbirliyi deməkdir. Dünya həqiqətən də ədalətli, hüququn aliliyinə hörmət edən dünya olsaydı, terrorçu ermənilərlə əməkdaşlıq edib Azərbaycanın mədəniyyət nümunələrini oğurlayanlar mühakimə edilə və layiq olduqları cəzanı alarlar. Təəssüflər olsun hazırkı dünya ikili stadarlardan ibarətdir. Vəhşiliyin pik nöqtəsi ondan ibarətdir ki, ermənilər işğal etdikləri ərazilərdəki bütün mədəni irsimizi məhv ediblər, pula keçən, zövqlərinə uyğun olanları isə Ermənistana aparıblar. Sonradan isə müxtəlif yollarla ABŞ-a, Hindistana, Fransaya, Yunanstana, Kanadaya, Livana və digər ölkələrə ki, dəstəkçilərinə pul qarşılığı olaraq satıblar. Erməni vəhşi toplumu Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri, ümumilikdə 67 məsciddən 65-ni tamamilə məhv edib, digər 2-ni isə müxtəlif iyrənc məqsədlər üçün istifadə edib. Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər. Ermənistanın mədəniyyət obyektlərinə, dini-mədəni irsimizə qarşı bu cür vandalizm aktları bir çox beynəlxalq sənədlərə, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş ”Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya”nın, ”Arxeoloji irsin qorunması haqqında” Avropa Konvensiyasının, ”Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya”nın müddəalarını kobud şəkildə pozmuşdur.









### Ən çox erməni vəhşiliyi Şuşamıza qarşı törədilib

Ermənistan terrorçularının təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır. Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, Tarzən Sadıqcanın evləri, Qız məktəbi, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir. Bu vəhşilik, vandalizm ancaq erməni terrorçularına xas xüsusiyyətdir. Digər millətlər, hansısa toplumlar tərəfindən belə bəşəri cinayətlərin törədilə biləcəyi təsəvvür edilmir. Ulu Öndərimiz Heydər Əliyev demişdir: ”Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir”. Birmənalı mövqe ondan ibarətdir ki, Şuşa Qarabağımızın incisidir. XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. Bu dövrdə şəhərdə çoxsaylı sənətkar məhəllələri yaranır, ticarət daha sürətlə inkişaf edirdi. Hələ XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdi. Şuşanı ”Kiçik Paris”, ”Qafqazın sənət məbədi”, ”Azərbaycan musiqisinin beşiyi” və ”Zaqafqaziyanın konservatoriyası” adlandırırdılar. Mənbələrdə göstərildiyi kimi, hələ XIX əsrin ortalarından başlayaraq Şuşanın mədəni həyatında bir canlanma baş verib. Azərbaycan dramaturgiyasının banisi M.F.Axundov öz komediyalarını geniş şəkildə yaymaq məqsədi ilə 1852-ci ildə teatr tamaşalarının intişar tapdığı Şuşa qalasına gələrək, arzusunu reallaşdırıb. V.Şekspirin ”Otello”su Azərbaycanda ilk dəfə 1893-cü ildə şuşalı müəllim, dramaturq və jurnalist Haşım bəy Vəzirov tərəfindən tərcümə edilərək səhnələşdirilib. Daha sonra C.Məmmədquluzadənin ”Ölülər” tragi-komediyası ilk dəfə 1916-cı ildə Xurşudbanu Natəvanın qızı Xanbikənin evində yerləşən məktəbdə tamaşaya qoyulmuşdu. XX əsrin əvvəllərinədək Azərbaycanda, o cümlədən Şuşada musiqi sənəti, ilk növbədə xanəndə və sazəndələr ustad-şəyird zəminində inkişaf edirdisə, artıq XX əsrdən başlayaraq peşəkar musiqi təhsili daha geniş sahələri əhatə edərək, sistemləşdirilməyə və kütləvişməyə doğru istiqamət götürmüşdü. O dövrdə Azərbaycanda bəstəkar Üzeyir Hacıbəyovun böyük əməyi sayəsində peşəkar musiqi təhsilinin bünövrəsi qoyulur.

*Ardı Səh. 11*

Əvvəli səh. 10

# Mədəni irsin talanması vandalizm aktıdır!

## İşğal dövründə mədəniyyət nümunələrini oğurlayanlar yalnız Ermənistan deyil, həm də Fransa və ABŞ-dır

İşğal nəticəsində bütün sivil dünyanın böyük həsrət, bəzən isə yanğı ilə baxdığı sənət məbədi olan Şuşa və Şuşanın mədəniyyət ocaqları erməni vandalları tərəfindən dağıdıldı, viran edildi. Lakin Şuşanı xəritədən silməyi, ən azı özlərinki edə bilmədilər. Çünki, Şuşanın qalaları, oradakı müqəddəs ruhlar imkan vermədi. Müqavimət göstərilər, o zamana qədər ki, 8 noyabr 2020-ci il də Azərbaycan əsgəri Şuşaya daxil olub, erməni vəhşilərini şəhərdən qovdu.

### Erməni toplumu tarixin özünə ləkədir

Mövcud araşdırmalarla sübuta yetirilir ki, erməni vəhşiliyi yalnız Qarabağın və ətraf rayonların işğalı zamanı tarixi, memarlıq nümunələrinin dağıdılması, talan edilməsi ilə yekunlaşmır. Bu vəhşi toplum hələ ötən əsrin əvvəllərindən, sonra kı, mərhələ də isə 88-cı ilin əvvələrindən başlayaraq tarixi torpaqlarımız olan Qərbi Azərbaycanda bizlərə məxsus irsi də dağıdıb, yer üzündən silib. 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 491 məscid fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə azərbaycanlıların sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Mollalar, Təzə Kilsə, Nərcan və digər kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Camə məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib. Qədim tarixi olan Zəngəzur mahalının Qarakilsə rayonunun Urud kəndi ərazisində yerləşən qədim Azərbaycan - türk tarixi-memarlıq abidələri kompleksi olan Uruda daxil olan Urud qalası Urud kəndi yaxınlığında yerləşən tarixi türk qalasıdır. Qala da bədii tərtibatlı məzar daşları, qəbirüstü sənduqələr və qoç heykəlləri olmuşdur. Qəbiristanda 13 sənduqə, 4 qoç heykəlli məzar daş qeydə alınmışdı. Məzarlıq ermənilər tərəfindən dağıdılıb, hazır da Urud qalasının yalnız xarabalıqları qalır. Traixi Azərbaycan şəhərimiz olan İrəvanda bir dənə də olsun memarlıq nümunəsi, abidə, məşcid qalmayıb, hamısını ermənilər dağıdıblar. Lakin əminlik var ki, Şuşaya, Xankəndinə, Əsgərana, Xocavəndə və digər işğal olunmuş ərazilərimizə qayıtdığımız kimi bir gün Qərbi Azərbaycan torpaqlarımıza da qayıdacağıq. İndi Azərbaycanın təcridxanasında cəzalarını gözləyən Vardanyan, Arayik, Saakyan, Quqasyan və digərləri kimi İrəvandakı terrorçularda cavab verməli olacaqlar.



Hələlik isə ermənilərin viran etdikləri ərazilərin bərpası istiqamətində sistemli və sürətli işlər aparılır. Bu məqamda Şuşanın azad edildiyi gün Fateh Sərkərdə, Prezident İlham Əliyevin xalqa təbrik müraciətində dediyi fikirlər yada düşür: ”Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Bu gün eyni sözləri təkrarlayıram. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!”.

Bəli, bu gün Şuşa dirçəlir, qurulur, bərpa edilir. Artıq dağıdılmış dini mərkəzlərimiz bərpa və təmirdən sonra istifadəyə verilib. Azərbaycan Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərindəki Saatlı, Aşağı Gövhərağa, Yuxarı Gövhərağa məscidlərin ziyarət ediblər və dövlətimizin başçısı məscidlərə Məkkədən gətirilmiş ”Qurani-Şərif”i hədiyyə edib. Şuşa şəhərindəki Saatlı məscidini ziyarət edərkən bildirib ki, düşmən bizim azad edilmiş torpaqlardakı dini abidələrimizi işğal dövründə məhv edib, 67 məscidi dağıdıb, yaxud da ki, belə yararsız vəziyyətə salıb: ”Şuşa işğaldan azad olunandan sonra bizim vətəndaşlar əl gəzdirib, məscidi təmizləyib və müəyyən təmir işlərini görüblər. Ancaq, əlbəttə ki, məscidin əsaslı təmiri bundan sonra aparılacaq, bütün müvafiq göstərişlər verilib, Heydər Əliyev Fondu bu missiyanı öz üzərinə götürüb. Mehriban xanım bu barədə açıqlama verib və biz bütün tarixi-dini abidələrimizi bərpa edəcəyik”.

İşğaldan azad edilən ərazilərdə aparılan təmir, tikinti, bərpa işlərindən sonra qayıdan insanlar arasında şuşalılar da var. Cari ilin mayın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə ilk yaşayış kompleksinin açılışı olub. Yaşayış kompleksində ilk olaraq 20 ailə, o cümlədən 88 nəfər yerləşib. 23 dördmərtəbəli binadan ibarət yaşayış kompleksi 8 hektar ərazidə inşa edilib. 450 mənzildən, o cümlədən 28 ədəd birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzildən ibarətdir. Müvafiq olaraq 300 və 500 mənzildən ibarət ikinci və üçüncü yaşayış kompleksinin tikintisi planlaşdırılır. Azərbaycanın mədəniyyət paytaxtı, qədim şəhərimiz Şuşada bu günə qədər çoxsaylı yerli və beynəlxalq miqyaslı konfranslar, seminarlar, festivallar keçirilir. Bütün bunlar bir daha Şuşamızın Qafqazın incisi, Qarabağımızın baş tacı olduğunu təsdiqləyir.

Bir sözlə, düşmənə döyüş meydanında vurulan sarsıdıcı zərbə işğaldan azad edilən ərazilərin bərpası ilə davam etdirilir. Söz yox ki, Şuşamız, Laçınımız, Ağdamımız, Xankəndimiz, Zəngilanımız və digər azad edilən şəhər və kəndlərimiz, qəsəbələrimiz Fateh Sərkərdə, Prezident İlham Əliyevin diqqəti və qayğısı ilə yenidən qurulacaq, gözəl, füsunkar məkanlara çevriləcəklər.

***İLHAM ƏLİYEV***









# Ermənistanın "yeraltı müharibəsi" davam edir












***Azərbaycan ərazilərində Ermənistan tərəfindən kütləvi şəkildə minaların və digər partlayıcı qurğuların yerləşdirilməsi bərpa və yenidənqurma işlərinin əngəlsiz şəkildə irəliləməsinə ciddi maneə olaraq qalır.***

Ermənistanın doğma yurdlarına qayıtmağa başlayan soydaşlarımıza qarşı "yeraltı müharibəsi" hələ də davam edir. Yaxın günlərdə bundan daha üç vətəndaşımız Kəlbəcərdə mina partlayışı nəticəsində yaralanıb. Partlayış rayonun Ağdaban kəndi ərazisində minalardan təmizlənməmiş ərazidə baş verib.

Bu minalar Azərbaycanda insan təhlükəsizliyi üçün böyük təhdid təşkil etməyə davam edir. Təxminən 3400 azərbaycanlı mina



partlayışının qurbanı olub. Onlardan təxminən 600-ü ölümlə nəticələnib. Mina partlayışına görə həyatını itirənlərdən 358-i uşaq, 30-u qadındır. Ərazilərin minalarla çirklənməsi əhalinin həyat və yaşayışını təhlükə altına alır, yüz minlərlə məcburi köçkünün öz evlərinə qayıtmasına mane törədir. Bərpa istiqamətində minasızlaşdırmanın vacib rolunu qəbul edən Azərbaycan 18-ci milli Dayanıqlı İnkişaf Məqsədini irəli sürüb.

Odur ki, Azərbaycan öz ərazilərinin minalardan təmizlənməsi işində beynəlxalq təşkilatlardan fəal dəstək gözləyir. Bu bir reallıqdır ki, Ermənistanın mina xəritələrini təqdim etməməsi Azərbaycanın işğaldan azad olunmuş ərazilərində təhlükəsizliyin və inkişafın təmin edilməsini çətinləşdirir. Ermənistan bu məsələdə məsuliyyət daşımalı və mina xəritələrini təqdim edərək, humanitar hüquq və beynəlxalq qanunlar çərçivəsində hərəkət etməlidir. Beynəlxalq ictimaiyyətin bu məsələdə aktiv rolu, regionda davamlı sülh və sabitliyin təmin edilməsi üçün vacibdir.

Dövlətimiz bu məsələdə də lazım olan tədbirləri görür və əlindən gələni əsirgəmir. Bu günlərdə beynəlxalq səyyahlar Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsində yerləşdirdiyi minaların azərbaycanlı istehkamçılar tərəfindən zərərsizləşdirilməsi prosesini izləyiblər. Səyahətçilər Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər çərçivəsində Füzuli rayonunun Horadiz kəndinə gəliblər. Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) nümayəndələri qonaqlara işğaldan azad edilmiş ərazilərdə minalardan təmizlənmənin necə aparıldığını, hansı ərazilərin artıq təmizləndiyini və qarşıda hansı işlərin görülməli olduğu barədə məlumat veriblər. Qonaqlara həmçinin daha əvvəl aşkar edilmiş və zərərsizləşdirilmiş tank əleyhinə minaların partladılması nümayiş etdirilib.

Səfər dünyaca məşhur MTP (Most Traveled People) təşkilatı tərəfindən təşkil edilib. Son 4 ildə 50-yə yaxın ölkədən 360-dan çox beynəlxalq səyahətçi Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər edib. Çarlz Veylinin başçılıq etdiyi bu qrupun səfəri sayca 11-ci olub. Səfərdə 13 ölkədən - ABŞ, Böyük Britaniya, Almaniya, İsveçrə, Norveç, İsveç, Portuqaliya, Filippin, Polşa, Macarıstan və başqalarından səyahətçilər iştirak edib.

Bütün dünya bilməlidir ki, Azərbaycan Ermənistanın mina müharibəsindən əziyyət çəkir. Təsadüfi deyil ki, Azərbaycanın adı dünyanın 5 ən çox minalanmış ölkələri siyahısına daxil edilib. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin II Şuşa Qlobal Media Forumunun açılış mərasimində toxunduğu mövzulardan biri də Ermənistanın müharibədən sonra Azərbaycan ərazisini minalarla çirkləndirilməsi oldu. Dövlətimizin başçısı qeyd edib ki, 2020-ci ilin 10 noyabr tarixli üçtərəfli Bəyanatından sonra, bizim Laçın dəhlizi üzərində nəzarətimiz olmadığı dövrdə Ermənistandan mina daşınır və onlar Qarabağda basdırılırdı: "Biz bunu necə bilirik? Çünki o minaların üzərində "İstehsal tarixi 2021-ci il, Ermənistanda istehsal edilmişdir" yazıları var. Yəni, təsəvvür edin ki, İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra belə onlar bizə qarşı mina terroru həyata keçirirdilər".

Bu gün dünyanın bir çox ölkələrinin mina terrorundan əziyyət çəkdiyini forum iştirakçılarının diqqətinə çatdıran Prezident İlham Əliyev iyulun 19-da insidentin baş verdiyini, üç nəfərin mina partlayışı nəticəsində yaralandığını söyləyib: "2020-ci ildən bu yana 300-dən çox insan ya həlak olub, ya da yaralanıb. Təəssüf ki, nəhayət, Ermənistanın bizə verdiyi mina xəritələri tamamilə yararsızdır, onlar dəqiq deyil. Əvvəl biz onlardan xahiş edəndə deyirdilər ki, - onların baş nazirləri mənə deyirdi ki, - bizdə xəritələr yoxdur. Ancaq sonra etiraf etməli oldular ki, xəritələr var, amma onlar tamamilə yararsızdır".

Keçmiş köçkünlərin doğma yurdlarına qayıdışına ən böyük maneənin məhz minalar olduğunu deyən dövlətimizin başçısı Azərbaycanın həmin ərazilərin reabilitasiyasının daha sürətli aparılması üçün infrastruktur layihələrinin və yaşayış binalarının inşasına başlamamışdan əvvəl o ərazilərin minalardan təmizləndiyini qeyd edib. "Təəssüflər olsun ki, bizim kifayət qədər resursumuz, təcrübəli heyətimiz yoxdur. Beynəlxalq təşkilatlar və şirkətlər bizə elə qiymətlər təklif edirlər ki, hər bir kvadratmetrə təklif edilən qiymət 5-10 dəfə artıqdır. Çünki bizim də özümüzün Minatəmizləmə Agentliyimiz və şirkətlərimiz var. Bu, nə qədər davam edəcək, bunu demək çox çətindir".

İşğaldan azad olunmuş ərazilərin əziyyətli və vaxtaparan iş olduğu hamıya məlumdur. Üstündən 25 il keçməsinə baxmayaraq, Balkanlarda hələ də mina partlayışlarının baş verdiyini forum iştirakçılarının diqqətinə çatdıran Cənab İlham Əliyev bu bəlanın artıq beynəlxalq xarakter aldığını vurğuladı: "Yəni, Balkanlarda münaqişə illərdir sona çatmasına baxmayaraq, hələ də bu hallar baş verir. Təəssüflər olsun ki, biz də onilliklər ərzində bununla üzləşəcəyik. Bu gün bizdə olan məlumata görə, orada bir milyondan artıq mina basdırılıb".

Qeyd edək ki, minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən azad olunan ərazilərdə iyulun 22-28-də 31 tank əleyhinə mina, 66 piyada əleyhinə mina, 898 partlamamış hərbi sursat (PHS) aşkarlanıb və zərərsizləşdirilib. Bir həftə ərzində 885 hektar ərazi minalardan təmizlənib.

***Nigar Orucova***

# Qarpızı necə seçməli ki, zəhərlənməməli?







**Yayın ən məşhur meyvələrindən biri də şübhəsiz ki, qarpızdır. Hər meyvəni öz mövsümündə istehlak edənlər bilir ki, avqust ayından öncə qarpız yeyilməsi təhlükəlidir. Lakin havaların ildən-ilə daha çox isinməsinin, qlobal istiləşmə probleminin artmasının qarpızın erkən yetişməsinə də təsir etdiyi iddia edilir. Hələ iyun ayının birinci yarısından kütləvi istehlak edilən qarpız bu il zəhərlənmə hallarına demək olar ki, yol açmadı.**

Qan-qırmızı, şirin dadlı qarpızları seçmək üçün tərəvəz dükanlarında çox vaxt keçirənlər kifayət qədərdir. Çünki yaxşı qarpızı seçməklə iş bitmir, bunun bir də təhlükəli tərəfi var, çünki qarpız nitrat zəhərlənməsinə səbəb ola bilər və sağlamlığınızı riskə atar. İndi süni intellektin köməyi ilə də qarpız seçənlər var. Proqram qarpızların hansının daha qırmızı və yetkin olması barədə seçim etməyə kömək edir.

Qarpız yetişdirilərkən istifadə edilən azot gübrələrindən normadan çox istifadə edildiyi üçün qarpızda nitratın miqdarı artıq ola bilər. Həddindən artıq nitrat qəbulu insan orqanizmi üçün zəhərlidir və tərkibində bol miqdarda nitrat olan qarpız yeməklə qida zəhərlənməsi baş verə bilər. Qarpız yedikdən ən az 2 saat sonra özünüzdə ürəkbulanma, qusma, güclü ishal, başgicəllənmə, baş ağrısı, mədə sancısı, temperatur kimi simptomlar görürsünüzsə, nitrat zəhərlənməsi yaşayırsınız və dərhal həkimə müraciət etməyiniz tövsiyə olunur.

## Qarpızın zəhərli olduğunu necə bilmək olar?

Qarpızın qida zəhərlənməsinə səbəb olma riskini sadalayacağımız əlamətlərə diqqət yetirməklə müəyyən edə bilərsiniz. Qarpızda nitratın çox yüksək olduğunu qabığın iç tərəfinin sarı olduğundan bilmək olar. Qarpızı kəsərkən qabığın daxili kənarlarının sarı olduğunu görsəniz, o qarpızı yeməməlisiniz, zəhərlənə bilərsiniz. Qabığın çöl tərəfi yaşıl, içəri tərəfi ağ rəngdən ibarət olmalıdır.

Nitrat əslində bitkilərin sürətli böyüməsinə kömək edən bir komponentdir. İstehsalçılar qarpızların çox qısa müddətdə yetişməsi və böyüməsi üçün həddindən artıq nitrat ilə yetişdirirlər. Bu qarpızları yeyən şəxsin nitratdan zəhərlənməsi tamamilə gözləniləndir.

Qarpızda deşiklər varsa almayın. Satıcı sizə bu dəliklərin həşəratlar tərəfindən yarana biləcəyini, yaxud da daşınma prosesi zamanı olduğunu deyəcək, lakin bu dəliklər iynə izləri ola bilər. Suvarma zamanı nitrat verilməsi azmış kimi meyvəsinə də iynə ilə tez yetişməsinə səbəb olacaq komponentlər vurulur. Qabığında deşik olan qarpızın içi ləzzətli olsa da, yeməməyiniz məsləhətdir.

Bəzən qarpızı kəsdiyiniz zaman tam ortasında özək yerinə böyük boşluq, çuxur görürük. O boşluq əslində qarpızın hormonlarla zəngin olduğunun göstəricisidir. Bu növ qarpız yemək sizi xəstə edə bilər. Aldığınız qarpızdan şübhələnirsinizsə, çox sadə bir testlə həddindən artıq nitratla zəngin olub-olmadığını öyrənə bilərsiniz. Bir stəkan suyun içinə kiçik bir parça qarpız qoyun və rənginin çıxmasını gözləyin. Əgər suyun rəngi açıq çəhrayı rəngə çevrilirsə, bu o deməkdir ki, o qarpızda çoxlu nitrat var, onu heç vaxt yeməyin.

## Dadlı düşmən

Qarpızın içindəki böyük çatlar böyük təhlükənin əlaməti ola bilər. Bu çatlar "forxlorfenuron" adlı süni böyüməyə təşviq edən kimyəvi maddənin nəticəsidir. "Forxlorfenuron" böyüməni sürətləndirdiyi üçün bu çatlar sürətlənmiş böyümədən sonra müşahidə edilir. "Forxlorfenuron"un istifadə etdiyi meyvələr təbii meyvələr kimi təzə və yetişmiş, bəzən hətta təbii meyvələrdən daha gözəl görünə bilər. Bu görüntü həmin məhsulları gözəgəlimli etsə də dadındakı fərq hiss olunur.

"Forxlorfenuron", ABŞ kimi bəzi ölkələrdə rəsmi orqanlar tərəfindən təsdiqlənmiş bir neçə hormonal maddələrindən biridir. Bəzi araşdırmalara görə bu kimyəvi maddə xərçəngə səbəb ola bilər. Lakin ABŞ Qida Administrasiyası bunun əksini iddia edir və araşdırmalarda insanlar və heyvanlar üzərində heç bir yan təsirin müşahidə edilmədiyini iddia edir. İndi hər şeyin bazar iqtisadiyyatına görə tənzimləndiyini, bütün planların daha çox maddi gəlir əldə edilməsi uğrunda qurulduğunu nəzərə alsaq o zaman bu iddianın da gerçək ola biləcəyini düşünmək olar. Üstəlik, xərçəng statistikasının hər il yüksəldiyini nəzərə alaraq...

"Forxlorfenuron" hormonu meyvəni o qədər tez yetişdirir ki, qarpızın adət etdiyimiz o qan-qırmızı rəngi tam formalaşa bilmir. Qarpız dişləndikdə yavan dad verir, suyu-şirəsi normal qarpızdan qat-qat az olur. Hormonun təsiri ilə vaxtından əvvəl yetişən qarpızın tumları adət etdiyimiz qara rəngdən çox fərqlənir. Hormonal qarpızlarda qara və qalın toxumlar yerinə ağ və nazik toxumlar olur.

## Yemək olar, amma diqqəti əldən verməmək şərti ilə...

Bəzən daha qənaətcil olması üçün daha yüngül qarpız seçməyə çalışırıq. Lakin qarpızın ağır çəkisi onun tam yetişmiş və sağlam olduğunu göstəricisidir. Yəni kiçik ölçülü qarpız da alsanız, mütləq ağır olanını seçin.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyir ki, xüsusi cihazla qarpız-yemiş, digər kənd təsərrüfatı məhsullarının tərkibindəki nitritlərin miqdarını yoxlamaq mümkündür: "Deyə bilərəm ki, məhsulların tərkibindəki nitritlərin miqdarı getdikcə azalmağa başlayıb. Bu gübrənin qiymətinin getdikcə bahalaşmasından qaynaqlana bilər. Amma fermerlər qarpız məhsulunun böyük olması üçün



çoxlu miqdarda gübrədən istifadə edir. Qarpız, yemiş elə növ məhsuldur ki, öz mövsümündə də nitratla zəngin ola bilir. Normalda, icazə verilən sanitar normada deyilir ki, 1 kq qarpızda 60 mq-dan artıq nitrat olmamalıdır. Amma apardığımız müşahidələrdən və araşdırmalardan sonra görürük ki, 1 kq qarpızda hətta 200-300 mq nitrat olur".

*Lalə Mehralı*

Təhlükə

# “Ermənistan öz konstitusiyasında dəyişiklik etməlidir”







“Biz artıq danışıqlar aparırıq. Ermənistan öz konstitusiyasında dəyişiklik etməlidir. Bu haqda da elə konstitusiya günündə Nikol Paşinyan öz hesabında bu paylaşımı edib bildirdi ki, konstitusiyada dəyişikliklər etmək lazımdır”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov deyib.Onun sözlərinə görə, indi ermənilər bildirirlər ki, konstitusiya dəyişikliyi 2026-cı ildə olacaq: ”Yəni 2026-cı ilə qədər hələ xeyli müddət var. Biz tam təminat ala bilməsək ki, onlar maddəni çıxaracaqlar, o zaman, biz də qədim Azərbaycan torpaqlarını hansı ki, hələ də öz ərazimiz sayırıq, geri istəyəcəyik. Bu gündə də Qərbi Azərbaycan İcması həmin torpaqları qaytarmaq üçün iş aparır. Çünki onlar 88-89-cu illərdə vəhşicəsinə qovulublar. Bizim nə qədər soydaşlarımız erməni faşistləri tərəfindən qətlə yetirildi, evləri yağmalandı, dağıdıldı. Ona görə də hazırda Qərbi Azərbaycan İcması bu gün də çox aktiv iş aparır. Oradan qovulan 250 mindən artıq azərbaycanlının öz dədə-baba torpaqlarına qaytarılması üçün Qərbi Azərbaycan İcması çalışır. Biz ancaq BMT qarşısında bu məsələni qaldırmışıq. BMT-nin Qaçqınlar və Köçkünlər Komitəsi qarşısında bu məsələ qaldırılıb. Ancaq ərazi kimi biz bu məsələni hələ qaldırmamışıq”.”Səbrlə, diplomatik yolla erməni siyasətçilərini başa salırıq ki, konstitusiyada Azərbaycana ərazi iddiası olan bəndi çıxarmalıdırlar. Düşünürəm ki, bunu ermənilər artıq dərk edirlər. Ona görə də, onlar artıq hər yerdə öz ərazilərinin 28,743 min kvadratkilometr olduğunu bəyan edirlər və tezliklə də bizim obyektiv, beynəlxalq hüquq normalarına uyğun olan tələbimizi yerinə yetirəcəklər.

Əgər 2026-cı ildə də bu məsələ həll olunmasa, biz də Azərbaycan dövləti olaraq Sovet dönəmində Azərbaycan torpaqlarının alınıb ermənilərə verilməsi məsələsini qaldıracağıq. Konstitusiyada da həmin torpaqları, qədim Azərbaycan torpaqları kimi bildirəcəyik. Eyni zamanda bizim müvafiq dövlət qurumları Sovet sisteminin Azərbaycana vurduğu böyük, ağır ləkələri, cinayət hadisələrini, o cümlədən Azərbaycan torpaqlarının alınıb ermənilərə verilməsi barədə beynəlxalq məhkəmələrdə də məsələ qaldırıb həmin torpaqların geri alınmasını, Azərbaycan Demokratik Respublikasının varisi kimi bu torpaqların bizə qaytarılmasını tələb edə bilərik. Bu mənada biz gözləyirik ki, Ermənistan Azərbaycanın haqlı və obyektiv qərarına əməl edəcək” - deyə o, əlavə edib.



**Söylü**

# “Təhsil müəssisələri ilə əmək bazarı arasında rabitə düzgün qurulmayıb”



“Bu gün işsizlik problemi təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində diqqət mərkəzindədir. Çünki süni intellekt, İKT-nin imkanlarının genişlənməsi, elmi texniki tərəqqi, informasiya kommunikasiya texnologiyalarının inkişafı əl əməyinə ehtiyacı azaldır”. Bu sözləri SİA-ya açıqlamasında sosioloq Üzeyir Şəfiyev deyib.O bildirib ki, digər tərəfdən də baxıb görürük ki, əmək bazarında tələb-təklif məsələsində problemlər var: ”Əmək bazarı xüsusi sahələr, ixtisaslar var ki, o sahələrə ehtiyac duyduğu halda təhsil müəssisələri bəzən əmək bazarının ehtiyaclarını vaxtında duya bilmir və əmək bazarının tələblərinə uyğun kadr hazırlığı ilə məşğul ola bilmir. Ona görə çox yaxşı olar ki, təhsil müəssisələri əmək bazarını öyrənsin, əmək bazarının təkcə bu günkü vəziyyətini yox, həm də yaxın və orta, uzaq perspektivi proqnozlaşdırmağı bacarmalıdır. Müəyyənləşdirməlidir ki, yaxın, orta, uzaq perspektivdə Azərbaycanda əmək bazarında hansı sahələrin mütəxəssislərinə ehtiyac olacaq. Buna uyğun kadr hazırlığı ilə məşğul olunmalıdır. Eyni zamanda bu təkcə ali təhsil müəssisələrinə aid deyil, həm də peşə məktəbləri, kolleclərə aiddir. Bu istiqamətdə çox yaxşı olar ki, bir hesablayıcı, proqnozlaşdırıcı mərkəz olsun. Məhz əmək bazarı ilə təhsil müəssisələri arasında tələb-təklif məsələsini koordinasiya edə bilsin.Bəzən elə sahələr var ki, orada həddindən artıq mütəxəssis bolluğu var, amma elə sahələr var ki, mütəxəssis azlığı yaşanır. Bu o deməkdir ki, təhsil müəssisələri ilə əmək bazarı arasında rabitə düzgün qurulmayıb. Strateji planlaşma düzgün həyata keçirilmir. Ona görə məqsədəuyğundur ki, bu məsələlər aradan qalxsın. Digər mühüm məqam ondan ibarətdir ki, bilirsiniz ki, regionlardan paytaxta davamlı axın var, kəndlər, regionlar boşalır, paytaxt yüklənir. Bu da paytaxtda, şübhəsiz ki, həm işsizlik yaradır, həm də ucuz işçi qüvvəsi effekti yaradır. Ölkə başçısının da bununla bağlı təsdiqlədiyi dövlət proqramları, hər 5 ildən bir regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramı var. Çox yaxşı olar ki, bu proqramın icrasına nəzarət mexanizmi gücləndirilsin, monitorinq həyata keçirilsin. Hər rayonda bu proqram üzrə iş sahələri, məşğulluq sahələri açılıb. Güman edirəm ki, əgər regionlarda sosial-iqtisadi inkişaf proqramından irəli gələn tələblər ödənilərsə, yerlərdə şərait yaradılarsa, gənclər üçün mənəvi mühit yaradılarsa, onlara mənzil-məişət məsələləri, pay torpaqları ayrılarsa, güzəştli ipoteka şərtləri ilə mənzil əldə etmək, ev tikmək imkanları olarsa, paytaxta axın etməzlər və paytaxt həm işsizlik problemi ilə, həm də tıxac, digər demoqrafik problemlərlə qarşılaşmaz. Deməli ki, regionlardan paytaxta axının qarşısını almaq yollarını düşünmək lazımdır. Bu istiqamətdə bir qədər gecikmişik. Ancaq bu, qaçılmaz bir məsələdir. Çünki bu, daha nəhəng sosial problemlər yarada bilər”.

Onun sözlərinə görə, elə insanlar var ki, baxmayaraq ki, pensiya yaşına çatıb, ancaq onlar yenə də işləməkdə davam edir: ”Bu da gənclərin əmək bazarında özünə yer tutmasına çətinliklər yaradır. Çox yaxşı olar ki, pensiya məbləği zəruri tələbləri, insanların etirazlarını ödəyəcək səviyyədə təmin edilsin ki, pensiya yaşına çatan şəxs rahatlıqla pensiyaya çıxsın və tərk etdiyi iş yerini gənclər tuta bilsin. Baxırıq ki, işçilər arasında gənclərin saldosu çox yüksəkdir. Bu da bizi düşünməyə vadar edir. Gənclər əgər işsiz olursa, onların mənzil-məişət problemi varsa, deməli, ailə qura bilmir, bu da ölkədə təbii artmaya mənfi təsir göstərir. Azərbaycanın 2023-cü ilin statistikası göstərir ki, təbii artım əvvəlki illərə nisbətən 15% aşağı düşüb. Bu bizim üçün bir qədər ciddi məsələdir.Azərbaycan əmək bazarına hər il 100 min işçi daxil olur. Bu, kifayət qədər ciddi rəqəmdir. Biz çalışmalıyıq ki, yeni iş yerləri açaq, Şərqi Zəngəzur və Qarabağ bölgəsində gənclər üçün məşğulluq sahələri düşünülməlidir. Həmin bölgədə demokratik vəziyyəti müsbət saldo üzrə dəyişməyə nail olaq. Həm də bu, işsizliyin xeyli qarşısını almış olar, əlavə iş yerlərinin açılması hesabına. Güman edirəm ki, bu istiqamətdə iş gedir, ölkə başçısı çox əsaslı addımlar atır. Yaxın perspektivdə həmin bölgədə açılan yeni iş yerlərinin hesabına bir qədər işsizlik məsələsinin aradan götürülməsində xeyli irəliləyiş əldə olunacaq.Sahə mütəxəssislərinin hazırlanması ilə də bağlı ciddi problem var. Yaxınlarda ölkə başçımız ixtisaslı miqrantların ölkəyə gəlişi ilə bağlı sərəncam imzaladı. Bu o deməkdir ki, elə sahələr var ki, bizdə həmin sahələr üzrə mütəxəssis qıtlığı var. Çox yaxşı olar ki, tələbələri xaricə göndərərkən Azərbaycan əmək bazarında ehtiyac olacaq sahələr üzrə fokuslanaq və ixtisaslı miqrantların gəlişinə ehtiyac olmasın.

Çünki ölkəmizdə təbii artımda enmə dinamikası müşahidə olunur. Bu da mexaniki artımı təşviq edə bilər. Bu, ölkəmiz üçün həm əmək bazarı baxımından, həm genefon və milli təhlükəsizlik baxımından bir qədər çətinlik yarada bilər. Ona görə strateji planlaşma həyata keçirərək xaricə göndərilən tələbələrimizi məqsədəuyğun, əmək bazarımızın tələblərinə uyğun sahələr üzrə göndərmək lazımdır. Onların geri dönüşünü təmin etmək üçün burada münbit şərait yaratmaq lazımdır ki, onlar ölkəyə qayıtmaqda maraqlı olsunlar.Ümumiyyətlə, işsizlik məsələsi, məşğulluq məsələləri bütün ölkələrdə müzakirə olunur. Azərbaycan bu istiqamətdə xeyli addımlar atıb. İşsizlik məsələsinin aradan qaldırılması istiqamətində dövlətin möhkəm iradəsi var, uğurlu layihələr, addımlar atır. Güman edirik ki, yaxın və orta perspektivdə Azərbaycanın əmək bazarında məsələ müsbət həllini tapacaq və işsizlərin sayının bir qədər də azalması proqnozlaşdırılır.

**S. Ağazadə**

# “COP29-da Azərbaycanın dünyaya nümayiş etdirəcəyi bir şey olacaq”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “fikir ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb*

***Rusiya Prezidentinin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün beynəlxalq təşkilatlarla əlaqələr üzrə xüsusi nümayəndəsi Boris Titov ”Moskva-Baku” portalına müsahibəsində BMT-nin noyabrda Bakıda keçiriləcək COP29 iqlim konfransında Rusiya Federasiyası ilə Azərbaycan arasında qarşılıqlı fəaliyyətdən danışıb. O, Rusiya-Azərbaycan əlaqələrini də qiymətləndirib. Müsahibəni oxucularımızın nəzərinə çatdırırıq.***




***-Boris Yuryeviç, siz bu yaxınlarda Azərbaycanda olmusunuz və burada ölkənin iqtisadiyyat naziri ilə görüşmüsünüz. Görüşdən sonra siz iki ölkənin iqlim dəyişikliyi məsələsində mövqelərinin oxşarlığını qeyd etdiniz. Bu məsələdə mövqelərimizin oxşarlığı nədən ibarətdir və COP29 iqlim konfransında Rusiya Azərbaycanla necə qarşılıqlı fəaliyyət göstərir?***

-Son illərdə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflərinin Konfransı mədən yanacaqlarının tədarükü üzrə dünya bazarında görkəmli yerləri tutan ölkələrdə keçirilir: Misir, BƏƏ, indi Azərbaycanda, 2025-ci ildə isə Braziliyada olacaq. Bu, uzunmüddətli perspektivdə karbohidrogenlərin perspektivləri haqqında düşünmək meylini, hətta ənənəvi yanacağa arxalanan ölkələrdə belə yaşıl keçidə doğru meyli əks etdirir. Və qeyd etmək lazımdır ki, Azərbaycan bu baxımdan kifayət qədər unikaldır. Azərbaycan nəinki neft və qaz tədarükünü davam etdirir, həm də hər il ”yaşıl” enerji sahəsində daha nəzərə çarpan addımlar atır. Siz məndən yaxşı xatırlayırsınız ki, milli strategiyaya əsasən 2030-cu ilə qədər Azərbaycanın enerji balansında ”yaşıl” enerjinin payı 30%-ə yaxınlaşmalıdır.

İqlim dəyişikliyini nəzarət altında saxlamaq üçün bu cür qayğı Xəzər hövzəsi üçün xüsusilə vacibdir.




Bütün Xəzərsahili ölkələr neft və qaz hasil edir, Rusiya və Qazaxıstan həm də kömür hasilatında dünyanın aparıcı ölkələri sırasındadır. Burada çoxlu karbohidrogenlər, həmçinin onların çıxarılması zamanı yaranan karbon qazı və metan var.

Ona görə də atmosferə atılan karbon qazının miqdarını azaltmaq üçün texnoloji həllərin vurğulanması Azərbaycanda xüsusilə maraqlı olacaq. Əminəm ki, Azərbaycan Respublikasının bütün dünyaya nümayiş etdirəcəyi bir şey olacaq.

Rusiyaya gəlincə, bizim enerji balansımızda bərpa olunan enerji mənbələrinin payı hələ də nisbətən aşağı olaraq qalır.

Biz başqa yollarla istixana emissiyalarının (”iqlim neytrallığı”) azaldılmasına nail olacağıq. Enerjiyə qənaətin artırılması, qapalı nüvə yanacaq dövrü texnologiyalarının tətbiqi, az enerjili atom elektrik stansiyalarının tikintisi, o cümlədən avtomobillərin mühərrikinin benzin və dizeldən daha ekoloji cəhətdən təmiz qaz yanacağına keçirilməsi. Rusiyanın 2050-ci ilə qədər enerji strategiyası hazırda hazırlanır və artıq qəbul olunmağa yaxındır.







***-Azərbaycan Prezidenti Şuşa Qlobal Media Forumunda çıxış edərkən Bakının COP29-un təşkilinə xüsusi yanaşmasını qeyd etdi. Konfrans təkcə iqlim gündəliyinə deyil, həm də ümumilikdə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında qarşılıqlı anlaşmanın formalaşdırılmasına həsr olunacaq. Yəni, "COP29 Azərbaycan" Qlobal Şimal və Qlobal Cənubu birləşdirməyə çalışacaq. Yəni, sülhməramlı rolunda çıxış edəcək. Fikriniz necədir: Azərbaycan bunu edə biləcəkmi?***

- Realist olaq- hələ heç kim buna tam nail ola bilməyib. Bununla belə, yeni dünya nizamı mövzusunda istənilən yeni söhbət bu dünya nizamının yeni binasında yeni bir kərpic qoyur. İştirakçıların deyəcəkləri ideya və təklifləri böyük maraqla izləyəcəyik.

***-Bakıda keçiriləcək COP29-da ölkələrin birgə səyləri ilə planetin qlobal ekoloji problemlərinin həllinə kömək edə biləcək layihələr müzakirə olunacaq. Amma bütün layihələr maliyyə tələb edir. Bu problemi necə həll etmək olar? Rusiya hansı töhfə verə bilər və verməyə hazırdır?***

-Biznesin bu gündəliyə cəlb edilməsi problemləri həll olunmasa, mənə elə gəlir ki, dünya qarşıya qoyulan məqsədlərə nail olmayacaq. Və biznes marağının yaranması üçün bizə karbon vahidlərinin ticarəti üçün ədalətli qlobal bazar lazımdır. Qərbdə bununla bağlı müəyyən standartlar formalaşıb, lakin həqiqətən ədalətli qlobal mübadilə maraqları üçün daha çox ölkəni əhatə edəcək standartlara gəlmək lazımdır.

Hesab edirəm ki, BRİKS və ŞƏT çərçivəsində bu mövzu daha fəal şəkildə təbliğ edilməlidir. Biz artıq Şanxay Əməkdaşlıq Təşkilatının Baş Katibi ilə əlaqə saxlamışıq və razılığa gəlmişik ki, Dayanıqlı İnkişaf üzrə daimi Şura yaratmaq lazımdır. Üstəlik, 2025-ci il ŞƏT tərəfindən Dayanıqlı İnkişaf İli elan edilib. Çində, yeri gəlmişkən, Qərb investisiya şirkətləri ilə əlaqəli olanlar da daxil olmaqla çox sayda ”yaşıl” fond var. Əgər onlar vahid standartlaşdırmada və açıq sərhədlərdə iştirak etsələr, bu, böyük töhfə olar.

Rusiyada da maraqlı şirkətlərin və dövlət orqanlarının böyük bir qrupu var, bazarın prototipini yaratmaq cəhdi var- yaşıl istiqrazlar, yoxlayıcılar, validatorlar, standartlar, emissiya registrləri var. Vəzifə bu təcrübəni beynəlxalq sistemə inteqrasiya etməkdir.

***-Beynəlxalq turbulentlik fonunda bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlər necə qurulur?***

-Azərbaycan Rusiyanın əsas tərəfdaşlarından biridir. Bizi ailə, biznes və digər səviyyələrdə ölkələrimizi birləşdirən minlərlə, hətta milyonlarla tel birləşdirir. Rusiya ilə Azərbaycan arasında ticarət-iqtisadi əməkdaşlıq çox uğurla inkişaf edir, qarşılıqlı ticarət dövriyyəsi son 3 ildə daha sürətlə artır. Azərbaycanda 800-ə yaxın müştərək Rusiya-Azərbaycan şirkəti fəaliyyət göstərir ki, onların da bir neçə yüzünün kapitalı tamamilə rusların nəzarətindədir.

Təbii ki, əsas problem (həmçinin əsas stimul) Qərbi Avropa bazarlarını Asiya istehsalçıları ilə birləşdirəcək beynəlxalq Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafıdır. Məlum olduğu kimi, o, Rusiya, Azərbaycan, İranı, Hind okeanına çıxışı olan Fars körfəzini və daha sonra Çini birləşdirməlidir. Dəhlizin əhəmiyyətli hissəsi Azərbaycan ərazisindən keçir.

İndiyədək 2030-cu ilədək tranzit və ikitərəfli yük daşımalarının 30 milyon tona çatdırılması planlaşdırılır. Xatırladaq ki, ötən il ərzində 17 milyon tona yaxın (həm dəniz, həm də dəmir yolu ilə) daşınıb. Dəhlizin ümumi potensialı onlarla dəfə yüksəkdir, lakin onu reallaşdırmaq üçün infrastrukturun yenilənməsinə xeyli sərmayə qoymaq lazımdır. Rusiya əlindən gələni edir, amma burada çox şey qonşularımızdan- Azərbaycandan, İrandan, Qazaxıstandan, Özbəkistandan, Türkmənistandan asılıdır.

***Tərcümə - Elçin Bayramlı***

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# “Facebook”un sahibi həftədə 1 milyard dollar qazanır!




“Facebook” sosial şəbəkəsinin sahibi Meta qrupu son rübdə illik ifadədə 22 faiz çox - 39 milyard dollar gəlir əldə edib. Kompaniyanın mənfəəti isə 73 faiz artaraq təxminən 13,5 milyard dollara çatıb. Bu isə həftədə bir milyard dollardan çox qazanc deməkdir. Meta kompaniyasının qurucusu Mark Sukerberq gəlirin əhəmiyyətli hissəsini süni intellektin inkişafına yönəltmək istəyir.

Kompaniya ötən rübdə xərclərini yeddi faiz artaraq 24,22 milyard dollara çatdırıb. Meta cari ildə müxtəlif yatırımlara 37-40 milyard dollar yatırmağı planlaşdırır. Təkcə hazırkı versiyadan təxminən on dəfə çox hesablama gücünə malik olacaq ”Llama-4” adlı növbəti süni intellekt modelinin hazırlanmasına milyardlarla dollar vəsait lazımdır.

Kompaniyanın maliyyə direktoru Susan Li yeni süni intellektin fərdi istifadəçilər üçün video seçimini daha yaxşı fərdiləşdirmək üçün də istifadə ediləcəyini vurğulayaraq bunun, məsələn, ”TikTok” video platforması ilə rəqabətə kömək edəcəyini bildirib.

## Hansı içkilərin içilməsi məsləhətdir?



***“Qazlı içkilər arzuolunmazdır, heç kim üçün, heç bir bədən quruluşuna birmənalı şəkildə tövsiyə olunmur”. Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.***

O bildirib ki, eləcə də rənglənmiş, şirinləşdirilmiş içkilər arzuolunmaz içkilərdir: ”Çox təəssüflər olsun ki, insanların buna çox marağı var. Lakin plastik qabın tərkibində olan kimyəvi maddələrin içkilərə miqrasiya edib insanlarda hansı xəstəlik əmələ gətirməsi tibbdə aydınlaşdırılmayıb. Lakin birmənalı şəkildə tövsiyə olunmur. Bir sözlə, insanlar yaxşı olar ki, qazlaşdırılmamış, rəngsiz su içsinlər. Yaxşı olar ki, şüşə qabda qablaşdırılmış olsun. Belə tövsiyə olunur. Uşaqları şirin, zərərli içkilərdən çəkindirmək lazımdır. Onlarda öyrəşmə, şirin içkiyə meyil yaradır”.

***Söylü Ağazadə***

## Bakı-Sumqayıt yolunda 2 avtobus toqquşub, 1 nəfər ölüb



Bakı-Sumqayıt yolunda iki avtobusun toqquşması nəticəsində 18 nəfərin xəsarət alması, bir nəfərin isə ölməsi ilə bağlı araşdırma aparılır. Baş Dövlət Yol Polisi İdarəsindən (BDYPİ) SİA-ya verilən məlumata görə, avqustun 2-si saat 11 radələrində Bakı-Sumqayıt avtomobil yolunun 29-cu kilometrliyində Hüseynov Nazim Kazım oğlunun Bakı-Sumqayıt ekspres marşrut xətti üzrə idarə etdiyi ”NEOPLAN” markalı, 99-JH-667 dövlət qeydiyyat nişanlı avtobus qarşıda gedən Yunusov Adil Şəmil oğlunun idarə etdiyi, 42 nömrəli marşrut xətti üzrə hərəkətdə olan ”İSUZU” markalı, 50-DO-539 dövlət qeydiyyat nişanlı avtobusla toqquşub.

Toqquşmadan sonra ”İSUZU” markalı avtobus yoldan çıxaraq aşıb və nəticədə 1 nəfər sərnişin hadisə yerində həyatını itirib. Əraziyə yol polis əməkdaşları cəlb edilib, faktla bağlı araşdırma aparılır.





## ELAN

YAP Şabran Rayon Təşkilatı tərəfindən Teymurova Gülnar Samil qızına verilmiş üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700